Qəhrdən ikrah edənlər lütfə olmaz müstəhəq,
Müstəiddi-dərd olanlar qabili-dərman olur.

Möhnətə səbr eyləyən rahət tapar, çün Yusifə
Səltənət təxminin əvvəl payəsi zindan olur.

Gər riza olsa qəzayə, müşkül olmaz hiç hal,
Arifə, səbr ilə, hər müşkül ki var, asan olur.

Fe'ldir əsli-rizayi-Həq nə kim, əslü nəsəb,
Xaki-fərmanbər bəşər, asi mələk şeytan olur.

Sayiri-məxluqdan bir kimsə olsa pakdil,
Əhli-beytin firqəsindən sayılır, Səlman olur.

Xah seyyid, xah ami kam tapmaz biədəb,
Fe'li müstəhsən olan, müstövcibi-ehsan olur.

Yüz məşəqqət çəksə, kami-dil tapar əncami-kar,
Hər kimin aləmdə mövlası Şəhi-mərdan olur.

Tirə olmaz raströv gər çəksə bəndi-ahənin,
Raströv tirü xədəngin ziyvəri peykan olur.

Tabei-fərman edər hökmünə cümlə aləmi,
Mürtəza hökmünə hər kim tabei-fərman olur.

Ol şəhənşəh kim, əgər bir murə qılsa iltifat,
Mur hökm eylər Süleyman üstünə, sultan olur.

Ol imami-dinü dünya kim, onun düşmənliyi
Müşrikin dininə vü dünyasına nöqsan olur.

Daş olur aslan, əgər qəhr ilə qılsa bir nəzər,
Hökm qılsa, düsmənin qəsdinə daş aslan olur.

Zərreyi mehri-rüxündən tapsa pərtöv asiman,
Asiman üzrə tamam əncüm məhi-taban olur.

Feyzi-lütf ilə əgər insanı etsə tərbiyət,
Qədr ilə insan mələknisbət əzimüşşan olur.

Vər mələk həm tapsa eyni-iltifatından nəzər,
Əqli-kamil kəsb edib, əlbəttə, bir insan olur.

Lütfü qəhrindən tapar müqbil əta, müdbir cəza,
Qət'ü fəsli-həşr üçün ol ləhzə kim, divan olur.

Kövsəri-cənnət onun hökmündədir ol vəch ilə,
Cümlə nəslindən həmin Adəm ona mehman olur.

Nuh onun sənduqinə kəştitək aparmış pənah,
Ehtiyat eylər ki, nagəh bir dəxi tufan olur.

Gərçi Ismailə qurban göydən enmiş qədr içün,
Həq bilir, qədr içün Ismail ona qurban olur.

Mö'cizi bir gülşəni-pakizədir kim istəsə,
Əndəlib ol gülşənə Davudi-xoşəlhan olur.

Hər kim ixlas ilə xaki-mərqədindən zərreyi
Alsa, onunla təbabət eyləsə Loğman olur.

Dusti gər mə'siyət qılsa, olur ğüfranpəzir,
Düşməni min taət etsə, mövcibi-üsyan olur.

Sayeyi-lütfü kərəm gər salsa xaki-tirəyə,
Cirmi-xaki-tirə rəşki-rövzeyi-rizvan olur.

Əql kim qəvvasi-dəryayi-kəmali-elmdir,
Cövhəri-zatın təsəvvür eyləsə, heyran olur.

Fəhm kim, səyyahi-iqlimi-diyari-dərkdir,
Vadiyi-idrakini seyr etsə, sərgərdan olur.

Dövri onun alü əshabindən almaz ruzigar,
Dövr onundur, devrilən hər necə kim, dövran olur.

Qəsri-vəsfinin binasın qılsa me'mari-xirəd,
Izzü cahü dövlətü iqbal dörd ərkan olur.

Ol sipehri-dövlətü iqbaldən yüz döndərər,
Dövlətü iqbal hər kimdən ki, rugərdan olur.

Var ümidim feyzi-dövlətdən, Füzuli, kim, müdam
Ta dilimdə qüvvəti-nitqü tənimdə can olur,

Dəm uram övsafi-övladi-Əlidən netəkim,
Mədhi-övladi-Əli müstövcibi-qüfran olur.

* * *

Çıxdı yaşıl pərdədən, ərz eylədi rüxsar gül,
Sildi mir'ati-zəmiri-pakdən jəngar gül.

Cam dut saqi ki, gülbünlər gül izhar etdilər,
Sən dəxi bir gülbüni-rə'nasən, et izhar gül.

Gəldi ol dəm kim, ola izhari-hikmət qılmağa,
Inşirahi-sədr ilə sədri-səfi-əzhar gül.

Yetdi il mövsim ki, açmağa könüllər mülküni,
Ola gülşəndə rəyahin xeylinə sərdar gül.

Adəm isən bağ seyrin eylə bu mövsimdə kim,
Bağı rəngü buy ilə qıldı behiştasar gül.

Çarsuyi-bağ seyranı bu gün mərğubdir
Kim, şükufə onda sərraf oldu vü əttar gül.

Çıxmış ikən bəzmi-gülşəndən yenə övd eyləyib,
Cami-mey andırdı əhli-tövbəyə təkrar gül.

Həbsdən Yusif çıxıb sultanı-Misr olmuş kimi,
Oldu, açıb qönçəsin arayişi-gülzar gül.

San Züleyxa xəlvətidir qönçeyi-dərbəstə kim,
Çıxdı ondan daməni-çakilə Yusifvar gül.

Çak olub bulmuş səfa badi-səhərdən sanasan,
Baddır Cibrilü qəlbi-Əhmədi-Muxtar gül.

Şəbnəmi-gülzari-rüxsari-rəsulüllahdır,
Nəşri-ətrilə qılır hərdəm ona iş’ar gül.

Dürri-şəbnəm saçdı rəngin bərglərdən hər tərəf,
Lə’li-xəndan etdi xublar kimi gövhərbar gül.

Surəti-halinə heyran eylədi aqilləri,
Açdı irfan əhlinə gəncineyi-əsrar gül.

Səbzə üzrə gəzdirər badi-səba gül bərgini,
Sanki səbzə asimandır, kövkəbi-səyyar gül.

Qıldı pünhan qönçənin lə’b ilə gözdən höqqəsin,
Bulmaq olmaz hiç rəng ilə, zəhi əyyar gül!

Yüz çevirmiş xardən ayrılmaq istər bisəbəb
Mün’imi-nakəs kimi əslindən eylər ar gül.

Xari-qeyrət nola gər sancılsa gülbün bağrına,
Ayrılıb ondan olur həmsöhbəti-əğyar gül.

Yeridir odlara yansa həsrət ilə xar kim,
Ondan alır ziybü ziynət, qeyrə olur yar gül.

Bivəfalıq adətin tutmuş onunçündür bu kim,
Ömrdən olmaz cahan bağında bərxurdar gül.

Qanğı bülbül qanı dutmuş bilməzəm kim, müttəsil
Gəh əsiri-xar olur, gəh mübtəlayi-nar gül.

Seyri-bağ etdim səhər, gördüm açıb məcmuəsin,
Hifz edib bu mətləi eylərdi istehzar gül:

Aşiq olmuş hüsnünə, ey sərvi-xoşrəftar, gül,
Çak-çak etmiş səninçün sineyi-əfgar gül.

Gül nə nisbətdir sənə, səndən ona yüz fərq var,
Sən büti-pərdənişinsən, şahidi-bazar gül.

Öylə pünhan eyləmiş köksündə sirri-eşqini
Kim, əyağından asarlar eyləməz iqrar gül.

Tutiyayi-çeşm üçün hər sübhdən yollar tutub,
Xaki-dərgahın səbadən eylər istifsar gül.

Seyri-gülzar etdigin peyki-səbadan fəhm edib,
Gənci-zər qılmış mühəyya, qılmağa iysar gül.

Bərgi-gül sanman ki, rəngin xiştlər cəm eyləmiş,
Çəkməyə ol gənci-zər hifzinə bir divar gül.

Ta səriri-səbzəyi dəprətməyə təhriki-bad,
Sayəsindən urdu hər lövhinə bir mismar gül.

Hər səhər gülzar lövhində çəkər yüz dairə,
Qaliba minqari-bülbüldən alır pərgar gül.

Eyş üçün gəlşən şəbistanın münəvvər qılmağa,
Hər ağacdan asdı bir qəndili-pürənvar gül.

Bunca qəndili füruzan eylədi, əmma nə sud,
Dudi-dildən qıldı bülbül ruzigarın tar gül.

Dari-dünyayı fəzayi-cənnətə döndərdi, leyk
Qönçə kimi bülbülə dünyayı qıldı dar gül.

Bir zəbani-haldır hər yaprağı fəhm etsələr,
Pərdədari-xak olanlardan verir əxbar gül.

Bülbüli-zar etdiyi fəryadlər tə'siridir,
Bisəbəb xabi-ədəmdən olmamış bidar gül.

Bağiban, sultani-adil dövrüdür, tənbih qıl,
Urmasın gülzarə atəş, zülm edib zinhar gül!

Cövr əlilə qönçənin pirahənin çak etməsin,
Cünbüşi-namö'tədildən qılsın istiğfar gül.

Yoxsa nagəh surəti-hali olur sultanə ərz,
Qəhrə uğrar müqtəzayi-vəz'i-nahəmvar gül.

Ol güli-bağı-xilafət kim, bəhari-dövləti
Aləməfruz olalı görməz cəfayi-xar gül.

Oldu dövründə həva məhbusi-zindani-hübab,
Qaliba görmüş həvadən şəmmeyi azar gül.

Bərgi-gül gəzdirməz oldu məhmili-badi-səba,
Həddi yox kim, çəkdirə badi-səbayə bar gül.

Sərsəri-qəhri-cəhansuzindən agah olalı,
Açmaz oldu busitani-fineyi-əşrar gül.

Xəlvəti-lütfünədir nuri-dili-mö'min çirağ,
Gülşəni-qəhrinədir daği-dili-küffar gül.

Şahi-din Sultan Süleymani-səadətmənd kim,
Kəsb edər xülqi-xoşundan nüzhəti-ətvar gül.

Başə salmış mehrini ruzi-əzəldən çərxi-pir,
Öylə kim, gülrüxlər eylər ziynəti-dəstar gül.

Inqilabi-dövrdən bulmazdı hərgiz ixtilal,
Alsa ondan hökmünə fərmani-istimrar gül.

Zövq bazarında bulmazdı bu rəng ilə rəvac,
Etməsəydi nəqşi-möhrün sikkeyi-dinar gül.

Olmaq içün mütribi-bəzmi, dutub bir dairə
Ögrənir hər sübh bülbüldən fəni-ədvar gül.

Mətbəxi-cudinə kim, dudinə sünbüldür qulam,
Xarkəşlik sən’ətin tutmuş, degil bikar gül.

Qurtulur fəth etdigi kişvər bəlayi-fitnədən
Kim, açıldıqda tikəndən ayrılır naçar gül.

Şərh edib susənlərə övsafi-xülqün, gəzdirir
Qönçədən hər sübh açıb gülşəndə yüz tumar gül.

Qətreyi-şəbnəmmidir, ya əl açıb sail kimi,
Xazini-lütfündən almış lö’löi-şəhvar gül?

Qoymayıb dövründə viran kargahi-gülbüni,
Bir ayağ üzrə durub olmuş ona me’mar gül.

Ədli əyyamında şəbnəm sanmanız kim, bülbülün
Beyzəsin qoynunda hifz etmiş olub qəmxar gül.

Daməni-pakiylə ol bəhcətfəzayi-mülkdür,
Gər cahan bağında cənnət güllərindən var gül.

Vəz’i-aləmdən fələk məqsudi oldu kim, olur
Bəsləməkdən xari mənzuri-ülül-əbsar gül.

Qədrinə verməz xələl dünyayə qılmaq iltifat,
Ziybü ziynət verdigiçün xarə olmaz xar gül.

Meyvə ol sultani-adildir nihali-dövlətə,
Sabiqən gəlmiş səlatini-fələkmiqdar gül.

Nola gər sabiqlər oldisə fəna, oldur qərəz,
Meyvə göstərdikdə tökmək rəsmdir əşcar gül.

Qıl, Füzuli, mədhin ol şahın ki, baği-mədhinin
Bülbülü olurdu, bulsa qüdrəti-göftar gül.

Gərçi yoxdur e’tibarın, mədhin et izhar kim,
Adəti-dövri-zəmandır xarə vermək bar gül.

Var ümidim necə kim rəsmi-mədari-dəhrdir,
İldə bir gəz aləmə ərz eyləmək didar gül.

Fəth bağından ona hər dəm xilafi-baği-dəhr,
Tazə-tazə aça lütfi-iyzədi-cəbbar gül.

❁ ❁ ❁

ابد اللّهم فی الآفاق امن المسلمین
با دوام دولت پاینده‌ٔ سلطان دین

نور اللّهم فی الاسلام مصباح البقا
با ثبات حشمت شاهنشه روی زمین

خلد اللهم سلطانا به باهی الزمان
شد ز فیض او فضای ملک فردوس برین

Ol kərəm dəryasi, ehsanü mürüvvət kani kim,
Yox ona bənzər fələk dürcündə bir dürri-səmin.

İqtidasi e'tilayi-şər'ə istiqlali-sidq,
Nüsrəti həqqiyyəti-islamə bürhani-yəqin.

بارگاه قدر او را چرخ خاک آستان
ساعد اقبال او را عدل طرز آستین

آنکه صدر سلطنت او راست از روز نخست
آنکه عقد مملکت با اوست تا روز پسین

اکبر الانصار للدین القویم المستقیم
اعظم الاعوان للشرع المعلی المتین

مبدأ الاحسان من آن بدا فی کل آن
منشأ الاشفاق من حین نشا فی کل حین

نور عدلش کرده مستغنی ز بهر روشنی
ربع مسکون را ز بزم آرای چرخ چارمین

Ol ki, ədlin eyləyib e'lan hifzi-şər'içün,
Müjdələr vermiş rəsulüllahə Cibrili-Əmin.

Dərgəhi-qədrinə min Daravü İskəndər gəda,
Xərməni-lütfinə min fəğfurü xaqan xuşəçin.

خسروان عصر را در آستان دولتش
وارثان ملک از بهر خراج او رهین
پادشاهان قدیم العهد را در ملکها
گنج گنج از بهر ما یحتاج درگاهش دفین
بذل در حسن مزاجش عطر در طبع گلاب
عدل در طبعش حلاوت در مزاج انگبین

Oldu hökmündən rəvanpərvər fəzayi-bərrü bəhr

قد افاض الروح جسما کان من ماء وطین

Fərzdir ol maliki-mülkün sənayi-rif'əti

انّه خیر لنا ذکر و قرآن مبین

Sərvəri-Cəmşidşan, darayi-İskəndər-nişan,
Xosrövi-sahibqiran, Keyxosrövi-nüsrətşərin.

پادشاه بحر و بر سلطان سلیمان آنکه هست
در خلافت جانشینان نبی را جانشین

Hər zərərdən sayeyi-ədlindədir asudə xəlq,
قد افاض الروح جسما کان من ماء وطین

Məhdi-mülki mə'məni-əhli-zəmandır fitnədən
احسن الاحوال فی الارحام احوال الجنین
عزم او را هست پیک فتح دائم در رکاب
جزم او را هست رخش عدل دایم زیر زین
هر کجا روی آورد هستند زیر رایتش
فوز و رأفت بر یسار و فتح و نصرت بر یمین

Hər yana əzm etsə qalibdir səvabi-rə'y ilə

عزمه عزم عظیم رأیـه رأی رزین
کلّ عـزم فیـه مقرون بتوفیق الصّواب
کلّ رأی فیـه توفیـق من الله المعـین

Ləşkərin nöqsan əgər görməzsə ə'dadən nola,

هست بـهـر نصرتش فـوج ملائک درکمین

Asitaninə cəbin sürsə fələklər, yox əcəb,

هست وضـع آستان او علی وضـع الجبین
کـنگر ایوان قدرش راست دایم برزبان
هذه جنات عـدن فادخلوها خالدین
در بهشت و دوزخ‌ند از لطف وقهرش نیک وبد
قهـرهٔ ملح اجاج لطفهٔ ماء معـین

Məqsədi fəthi-məmalikdən rəvaci-din həman,
Kimsəyə yox məhzi-mülkü mal üçün könlündə ki

Hər pəripeykər ki, kafirdən müsəlman eyləmiş
Olacaqdır cənnət içrə xidmətiçün huri-eyn.

ای زبر دستان عالم زیردست همتت
دور چرخ انگشت فرمان ترا انگشترین

نیست دور از نسبتی گر خاتم فرمان تو
عرصهٔ ملک سلیمان را کند زیر نگین

Vəqtidir kim, xameyi-təqdirdən təsvir alıb,
Surəti-divari-divanın ola xaqani-Çin.

Vəqtidir ola səvadi-hindü səhrayi-həbəş
Şahidi-mülkün zənəxdanında xali-ənbərin.

گردن دوران دوتا گشته ز طوق حکم تو
هر که بیند دور او را نیست عقل دوربین
آفرینش در پناه عدل ملک آرای تست
آفرین ای پادشاه ملک پرور آفرین
نیست حدّ هر کسی تجدید نعت نعمتت
به که بنماید فضولی هم فضولی بیش ازین

Var ümidim kim, həmişə irtifai-qədr ilə
Ola ehsanın nişatəngizi-hər zarü həzin

Göstərə sudi-bəqa pirayeyi-ehsan sənə
Müqtəzayi - لا يضيع الله اجر المحسنين

* * *

Münşiyi-qüdrət ki, çəkmiş xameyi-hikmətnigar,
Səfheyi-əyyamə qılmış səbt vəsfi-hər diyar.

Büq'eyi-Bağdadın etmiş künyətin Darüs-səlam
Kim, ona təslimü təhsin edə hər kişvər ki, var.

Övliya bürci demiş vəsfin ki, xaki-əşrəfi
Büq'ə-büq'ə övliya-üllahə olmuşdur məzar.

Həbbəza Bağdadi-xeyrəncam cəm'iyyətəsər
Kim, olubdur məzhəri-asari-feyzi-kirdigar.

Həm xilafət hökmünü, həm səltənət fərmanını
Bundan etmiş aləmə cari-müruri-ruzigar.

Bundadır baqi nişani-mö'cizi-xeyrül-bəşər,
Taqi-kəsra, nüsxeyi-mülki-müluki-kamkar.

Bundan olmuş höccəti-hökmi-xilafət müntəvi,
Bundadır xaki-xilafətxizi-xətmi-çar yar.

Bunda bağlamış qəza şəmşirini sultani-Rum,
Bunda salmış sayeyi-iqbal Şahi-zülfüqar.

Bunda qılmış sirri-həqq zahir şəhidi-Kərbəla,
Bundadır təhqiqi-sidqü kizb üçün darül-iyar.

Bunda olmuş müntəşir feyzi Imami-Ə’zəmin,
Bunda olmuş bəhreyi-elmi-şəriət intişar.

Bundadır Mə’rufə sərmənzil, Cüneydə cilvəgah,
Bundadır Bəhlulə zənciri-cünun, Mənsurə dar.

Dəştin etmiş seyr min Hatəm kimi səhranişin,
Şəhrin etmiş təxt min Nuşirəvantək şəhriyar.

Bunda olmuş seyti-ehsanü kərəm afaqgir,
Bundan olmuş mə’dələt rəsmi şiya’ü iştihar.

Səhni-səhrasında min Leyliyü Məcnun cilvəgər,
Kuhsari üzrə min Şirinü Xosrov badəxar.

Hər qəribə nazənin şəhrü vilayati vətən,
Hər mizacə mö’tədil abü həvasi sazikar.

Türbəti-məqbuli bərrü facirə tə’sirbəxş,
Xaki-paki-surəti hər ziynətə ayinədar.

Bu mücərrəbdir ki, bulmaz zülm bunda imtidad,
Bu müqərrərdir ki, olmaz bunda zalim payidar.

Gərçi bir qaç gün fələk xeyli-bəla tə’yin edib
Qılmaq istərdi bu mülkün rəxti-eyşin tarümar,

Küfr müstəvli olub, qılmışdı islami zəbun,
Cəhl istila bulub etmişdi əhli-elmi xar.

Tutdu dəsti-naleyi-məzlum dövran damənin,
Saldı dudi-ahi-dil ayineyi-çərxə qübar.

Çərx filhal oldu ol rə’yi-qələtdən münfəil,
Dövr filfövr oldu ol fikri-xətadən şərmsar.

Lütfi-Iyzəd şamili-əhvali-əhli-fəqr olub,
Qıldı feyzi-ədl ilə tədbiri-iczü inkisar.

Bayir olmuş mülkə tə’yin etdi me’mari-xirəd,
Susamış gülzarə irsal etdi əbri-növbahar.

Badipayi-əzmi-kişvərgiri-aləmgərd ilə,
Köhli-ə’yani-əcəm qıldıqda xaki-rəhgüzar,

Qıldı məşhuri-ərəb fəthi-əcəm tarixini,
Gəldi Bürci-övliyayə padişahi-namidar.

Rövşən etdi ədldən hər guşəsində min çirağ,
Cari etdi feyzdən hər mülkinə min cuyibar.

Ol şəhanşahi-fələktabe’ ki, vermiş dövləti
Bəhrü bər hökmündə xirşidə livayi-zərnigar.

ملك اللهم سلطانا سقى ارض العراق حينما اضطرت بارسال السحاب كالبحار
قتد لولاه ما سرنا الى صحن السرور مهتد لولاه ما نمنا على مهد القرار
دله من نائبات الدهر كهف للانام ما لهم الا به التسكين عند الاضطرار
سيفه من حادثات الدور حصن للعدا ما لهم الا قرار فيه من هول الفرار
سيته بالعدل للاسلام اصل الانتظام ذكره بالمجد للاسلاف وجه الافتخار
ز بلند اختر که فضل اولین و آخرین یافته در گوهر ذات شریفش انحصار
نور ملک آرای ماه از شمع جودش مستنیر تیغ عالمگیر مهر از دست فتحش مستعار
عرصهٔ دیوان حکمش نسخهٔ دیوان حشر کافر آنجا مضطر و مقهور مسلم رستگار
کارگاه لطف و قهرش مظهر نار و نعیم مؤمن آنجا منعم و خوش وقت منکر خوار و زار
درگهش عرشیست در رفعت که از چرخ برین می نماید دور با سکان آن قرب و جوار
حشمتش بحریست در وسعت که هست از وی محیط قطرهٔ افکنده تحریک تلاطم بر کنار
گر کند از صد هزار افزونتر اوصافش رقم نیست ممکن دادن شرح یکی از صد هزار

Ol şəhanşahi-fələktabe’ ki, vermiş dövləti
Bəhrü bər hökmündə xirşidə livayi-zərnigar.

Həddi-zati iqtidari-mavərayi-rəsmi-əql,
Rəsmi-feyzi-fitrəti mafövqi-həddi-iqtidar.

Fevz gülzarında bir sərsəbz nəxli-barvər,
Feyz dəryasında bir pakizə dürri-şahivar.

Hər nə kim, aləm ona möhtac, ol ondan qəni,
Hər nə onunla təfaxür xəlqə, ondan ona ar.

Mülki-istiğnadə feyzi-ne'mətindən layəzal
Xazini-gərdunə lazim səddi-babi-iftiqar.

Cilvəgahi-övci-iste'ladə vəhmindən müdam,
Badipayi-xoşxürami çərxə bimi-e'tibar.

Padişahi-bəhrü bər Sultan Süleymani-vəli,
Sərvəri-sahibnəzər, şahənşəhi-şəfqətşiar.

Ol nihali-gülşəni-dövlət ki, şaxi-gül kimi
Lütfü qəhrindən verir əhbabə gül, ə'dayə xar.

Hər cəhətdən zati-paki nöqteyi-pərgari-mülk,
Hasil onda hər tərəf yümni-yəmin, yüsri-yəsar.

Baniyi-hikmət ki, ərkani-ənasirdən müdam,
Çar divari-sərayi-sən'ət eylər üstüvar.

Salmadan kuhi-şükuhindən onun səngi-əsas,
Hər bina zimnində istehkamə qılmaz e'tibar.

Yeddi əxtər kim, qəza əmrin sərəncam etməgə
Naqətək qüdrət biyabanında çəkmişlər qətar,

Qət'i-rahi-Kə'beyi-məqsud edərlərsə nola,
Ol qəzahökmü qədərfərmanə vermişlər məhar.

Münqəte'dir dəhrdən əsrində tədbiri-ümur,
Mürtəfe'dir çərxdən dövründə təklifi-mədar.

Faş söylərlər ki, biz mə’zuliz əmrü nəhydən,
Hakim oldur, ondadır fərman, onundur ixtiyar.

Istəsə gərdun gəzib ruyi-zəmini şərqü qərb,
Nüsrəti-islam içün bulmaz onuntək şəhriyar.

Şər’ hifzində ətəmmi-mö’cizati-Müstəfa,
Din zühurində şəriki-əcri-əshabi-kibar.

Olmasa mümkün fəzayi-ərseyi-ədlində seyr,
Zülm edərdi dari-dünya əhlinə dünyayi dar.

Həq iki adil Süleyman hakim etmiş aləmə,
Əvvəlü axir qılıb sirri-ədalət aşikar,

Ol Süleymanın şükuhi divə salmış rəstəxiz,
Bu Süleyman səvləti küffari etmiş xakisar.

Ol Süleymana məhəlli-əzmdə məhmil həva,
Bu Süleymanə zəmani-rəzmdə məhkum nar.

Aləmin vəsfin Süleyman mülki derlərsə nola,
Çün Süleymandan Süleymanə qalıbdır yadigar.

Almağa qiymət verib yerdən qübari-dərgəhin
Çərx tədbiri-ticarət eyləmiş leylü nəhar.

Ayü gündən keyl edib, xəlqi tutub şahid verir,
Nurini peymanə-peymanə, alır ondan iyar.

Billah, ey dövlət ki, dərgahında məhrəmsən onun,
Düşsə firsət, halim ol dərgahə ərz et zinhar.

Qılmışam tərtib səhni-sidqə min dürri-səna,
Bulmazam rüxsət ki, dərgahə qılam bir-bir nisar.

Məndən ol qafil, ona mən ruzü şəb əhli-dua,
Məndən ol fariq, ona mən müttəsil ümmidvar.

Ya Rəb, olmaz olamı axir bu dərdi-iştiyaq,
Ya Rəb, olmaz olamı zail bu rənci-intizar?

Buldu aləm feyzi-amindən ilaci-dərdi-dil,
Haşalillah kim, qala ancaq Füzuli dilfigar.

Var ümidim kim, ona həm ola şamil mərhəmət,
Am olur, əlbəttə, feyzi-sayeyi-pərvərdigar.

Ta mədari-gərdişi-gərdun bulub imkani-dövr,
Dəftəri-dövran edə hifzi-hesabi-həftü çar.

Həft əxtər edə əmri-padişahə inqiyad,
Çar ünsür ola təb'i-padişahə sazikar.

* * *

1

Nə xoşdur əldə gülgun cam, başda eşq sevdasi,
Könüldə vəsl zövqi, canda cananlar təmənnasi,
Könül bir qaç zaman ənduhi-hicran ilə zar etmək,
Yenə ümmid ilə ahəngi-bəzmi-vəsli-yar etmək.

2

Nə xoşdur ol müsafir kim, səfər əzmini cəzm eylər,
Tutub rahi-təvəkkül mənzili-məqsudə əzm eylər.
Bulub sudin səfərdən, kəsb edib sərmayeyi-işrət,
Dönüb mülkinə hər mənzildə bir tədbiri-bəzm eylər.
Fərəhnak öylə kim, bir nazənin şəhbazi-seydəfkən
Alır seydin, olub xoşvəqtü xürrəm maili-məskən.

3

Nə xoşdur aşiyandan dəmbədəm şəhbaz pərvazi,
Şikar üzrə həva tutmaqda olmaq çərx həmrazi.
Urub minqar, açıb çəngal, tökmək seydlər qanın,
Yetirmək kəbkü dürracü təzərvə şəhpər avazi.

Alandan sonra seydin şad meyli-aşiyan etmək,
Nəçük kim, fəth edib mülki-Firəngi xosrövi-qazi.
Səfavü zövq ilə meyli-nigaristani-Rum etmiş,
Xilafət təxtini müstəqdəmi-feyzi-qüdum etmiş.

4

Zəhi sultani-rovşənrə'y, mülkarayi-dəryadil
Ki, tövfiqi-zəfər iqbalə qılmış cövhərin qabil,
Binayi-ehtimamından dəmadəm olmasa möhkəm,
Tilismi-dini-Həq tüğyani-küfr ilə olur batil.
Ülüvvi-iqtidarından peyapey bulmasa rövnəq,
Olur nəqşi-səadət səfheyi-əyyamdan zail.
Şəhi-dünyavü din Sultan Suleyman şahi adildil
Rizasin saxlayan həm din, həm dünya qılır hasil.
Həvadis dəf'inə aləmdə qadir padişah oldur,
Pənah istərsə, aləm, Xosrovi-aləmpənah oldur.

5

Hərimi-Həq çirağİ, səltənət şəm'i-şəbistani,
Riyazi-ədl sərvi, övci-rəhmət mahi-tabani,
Xilafətdə vilayət əhlinin himmətli sərdari,
Vilayətdə xilafət təxtinin dövlətli sultani.
Sekəndər təxtinin iqbal ilə məqbuli-Darasi,
Süleyman mülkünün isbat ilə varisi-Süleymani.
Məlazi-məmləkət, məmduhi-millət, məzhəri-rəhmət,
Hər afət dəf'i, hər qəm çarəsi, hər dərd dərmani.
Şəriət ziyvəri, din rövnəqi, islam ayini,
Mürüvvət mənbəi, insaf dəryasi, kərəm kani
Ki, hər kim hər dil ilə hər nə vəsfin qılsa, əfzundur,
Ona bənzər şəhənşəh görməmiş ta dövr gərdundur.

6

Şahənşahi ki, gərdun dərgəhi-qədrinə çakərdir,
Cəmii müddəasi feyzi-dövlətdən müyəssərdir.
Nə fərman kim, qılırsa Həq rizasinə mütabiqdir,
Nə yan kim əzm qılsa, bəxtinə tövfiq rəhbərdir.

Fəzayi-barigahi-ədlinin ə'yani-məqbuli
Sərasər hər biri ədlinə bir pakizə məzhərdir.
Müqəddəm cümlədən ol sərvəri-sahibsəadət kim,
Əzəldən tinəti insafü ədl ilə müxəmmərdir.

Nizamül-izzü vəl-iqbal Sultan Veysi-rövşəndil
Ki, darül-mülki-Rum ənvari-ədliylə münəvvərdir.
Könül, vəqt oldu, ol qütbi-zəman dövründə izhar et,
Nə məqsəd kim, zəmanlar batini-pakində müzmərdir.
Ədalət tinətinin tərzini ol pak təndən sor,
Nübüvvət xirqəsinin zövqini Veysül-Qərəndən sor.

7

Şəha, cənnət dilərdim, Həq müyəssər qıldı didarin,
Umardım nuri-rəhmət, ruzi oldu şəm'i-rüxsarin.
Muradım Kə'bə idi, tövfi-dərgahin nəsib oldu,
Çəkərdim lə'l üçün həsrət, irişdi səm'ə göftarin.
Qılırdım arizu Həqdən kilidi-məxzəni-məqsud,
Göründü dideyi-ümmidimə dəsti-gühərbarin.
Səfayi-təl'ətin məhv etdi könlümdən ələm nəqşin,
Müalic oldu hazir, qalmadı təşvişi bimarin.
Təriqi-izzü iqbali itirmişdim olub qafil,
Məni qəflət yuxusundan oyatdı bəxti-bidarin.
Nə taət əcridir, ya nə dua tə'siridir, ya Rəb
Ki, mətlübi müyəssər oldu möhnətsiz tələbkarin?
Füzuli hüsni-ətvarilə olmuş qürbünə mail,
Budur tə'siri aləmdə həmişə hüsni-ətvarin.
Səfayi-niyyət ilə yox dua qılmaqda təqsiri,
Dua olsa riyasız, böylədir, əlbəttə, tə'siri.

8

Binayi-rif'ətin ta dövri-gərdün var, var olsun!
Mədar etdikcə aləm, dövlətin aləmmədar olsun!
Məqami-irtifai-qədrinə bimi-həvadisdən
Həmişə dövləti-tövfiqi-həq hisni-həsar olsun!

Sərayi-himmətin kim, xəlqə salmış sayeyi-rəhmət,
Əsası nüsrətü fəth ilə daim üstüvar olsun.
Təmamiyi-ümurin hər cəhətdən mövcibi-təhsin,
Cəmii-xidmətin mənzuri-eyni-e'tibar olsun!
Sən olğıl ərcüməndi-mülk, düşmən qeydi-qəm çəksin,
Sən olğıl sərbüləndi-dəhr, hasid xarü zar olsun!
Fəzayi-büq'eyi-Bağdad ədlindən olub rövşən,
Mizaci-pakinə abü həvasi sazikar olsun!
Səriri-hökmi-bürci-övliya səndən bulub ziyvər,
Səfadən hər güni novruzü hər fəsli bəhar olsun!
Sənin vəsfinlə gün-gündən tapub rövnəq mənim nəzmim,
Mənim nəzmimlə vəsfin virdi-əhli-ruzigar olsun!
Zəban olduqca bir dəm getməsin zikrin zəbanimdən,
Xəyali-xidmətin məhv etməsin Həq lövhi-canimdən.

* * *

Gəldi ol İsa kim, ondandır həyati-əhli-hal,
Yoxdur onsuz xəlq cismində həyatə ehtimal.

Gəldi ol Xizri-mübarəkpey kim, onsuz bidəlil
Müztərib qalmışdı əhli-fəzlü ərbabi-kəmal.

Gəldi ol Mehdi ki, salmışdı zəmani-qeybəti
Iqdi-nəzmi-kişvəri-islamə bimi-inhilal.

Gəldi ol Asəf ki, qondurmuşdu cündi-şövkəti
Daməni-mülki-Süleymanə qübari-ixtilal.

Sərfərazü rastəhdü nikrə'yü xubruy
Sərvəri-pakizə ətvarü pəsəndidə xisal.

Cövhəri-qabil Əyasi-aqibət Məhmud kim,
Xəlqə göstərmiş onu Iyzəd fələkdən bir misal.

Mərhəba, ey rövnəqəfzayi-səriri-izzü cah,
Mərhəba, ey ziybbəxşi-məsnədi-cahü cəlal!

Sərvəra, həqqa ki xurşidi-cəmalindən cüda,
Əxtəri-iqbalinə yetmişdi Bağdadın zəval.

Olmuş ikən əşk seylabiylə ə'ma, şükr kim,
Buldu çeşmi-mülk xaki-məqdəmindən iktihal.

Qalmamışdı feyz, guya kim sənə imdad üçün,
Övliya qılmışdı Bürci-Övliyadən irtihal.

Ey xoş ol kim, xirməni-ə'dayi bərbad etməyə,
Canibi-dəryayə qıldın seyr manəndi-şimal.

Xəsm mülkinə xüraman eylədin xəzra ələm,
Şərri-şeytan dəf'inə açdın mələkvəş pərrü bal.

Girdin ol iqlimə kim, bəhr ilə bərrində onun
Yox sənə bir munisü qəmxar qeyri-Zülcəlal.

Qılmadın əmvaci-dəryayi-ədavətdən həzər,
Çəkmədin əhvali-asari-həvadisdən məlal.

Kəsdin əvvəl fitnə başın intizami-mülk içün,
Ibtidayi-kari-xeyr etdin, mübarək oldu fal.

Fəth qıldın ol yeri kim, dövri-Adəmdən bəri
Qılmamışdı sahibindən qeyrə hərgiz intiqal.

Aldın ol iqlimi kim, aləmdə yüz min padişah
Həsrətiylə verdi can, fəthin bilüb əmri-məhal.

Açdın ol mülki ki, yüz min səltənət lafın uran
Oldu əcz ilə onun də'vayi-təsxirində lal.

Şahidi-Bəsrə pərişanhal ikən verdin ona
Xəttü xali-ləşkəri-islamdən ziybi-cəmal.

Minbərin zikri-hümayun ilə etdin sərbülənd
K'ol məqami heyfdir qılmaq ərazil payimal.

Sikkəsinə padişah ismiylə verdin ziybü fər,
Heyfdir kim, ola ol rə'na siyəhru layəzal.

Kəsdin ol iqlimdən əhli-Firəngin rəğbətin,
Aça bilməz oldu küffar ol yana çeşmi-xəyal.

Xəlqə e'lan etməgə dini-Məhəmməd taətin,
Eylədin ol Məscidi-Əqsayə tə'yini-Bilal.

Sərhədi-Hindistan açdın, sənə yüz afərin!
Rum rüxsarına xeyli ziynət artırdı bu xal.

Gər sənə düşmən müqabil durmadiysə, vəchi var,
Oldürür xəffaşü sənsən afitabi-bizəval.

Fəth yüz vermiş sənə hər qanda kim əzm eyləsən,
Hiç kəsdən surətə gəlməz xilafi-imtisal.

Ləşkərin əzm etsə bir saətdə eylər tarimar,
Hər nə tədbirü təəssül qılsa xəsmin mahü sal.

Seyr qılsan himmətin sərfinə doymaz* bir nəzər,
Qılsa ə'da cümlə ömrün sərfi-zəbti-mülki mal.

Ərseyi-cəngü cidalin qətldən xali qalıb,
Müttəsil rə'yinlə tiğindir qılan cəngü cidal.

Tiğin isitər rəzm edə, qanlar tökə, başlar kəsə,
Rə'yin etməz düşmənin fəthini möhtaci-qital.

Böylə ki, tövfiqi-Həq nüsrət nəsib etmiş sənə,
Intisabi-rif'ətü iqbalə düşmüşdür məcal.

Dut cahan mə'murəsin sərəskəri-islam olub
Növcəvanlar zuri-bazusuna doymaz pirə zal.

---

* Dözməz

Cövhəri-zatində çün namusi-nəzmi-mülkdür,
Lütfi şahənşahi-islamın sənə olsun həlal.

Oldu rövşən kim, sənə ağazi-rif'ətdir bu fəth,
Pərtövi-xurşiddən bədr olacaqdır bu hilal.

Var ümidim kim, müxaliflər arasında müdam,
Asiman qıldıqca niyrani-ədavət işti'al,

Müttəsil fəth ola ruzi canibi-Həqdən sənə,
Fezyi-mədhinlə Füzuli xəstəyə hüsni-məqal.

* * *

Çöhrəvü xəttün xəyali çeşmimi qılmış məqam,
Açmağa Bəhreyni cəm' olmuş sipahi-Rumü Şam.

Cilvəgah etmiş qübari-dərgəhin müjganimi,
Sahili-dəryayı dutmuş əskəri-Darus-səlam.

Rahi-eşqində sirişkim göstərir hər dəm hübab,
Əzmi-rəh etdikcə ləşkər, rəsmdir nəsbi-xiyam.

Cəng edərlər bir biriylə tiğin içün xublər,
Rəsmdir ləşkərdə sular üzrə qılmaq izdiham.

Sərv lafi-hüsn edər, göstər qiyamın mən' qıl,
Baş çəkən sərkəşlərin dəf'inə vacibdir qiyam.

Qoyma zülfün düşməyə mahi-rüxi-rəxşaninə,
Qıl Müşə'şə mülkinin sahirlərə seyrin həram!

Könlümü gör, didədən gəh qan tökər, gəh qan içər,
Məddü cəzrini təmaşa qıl bu dəryanın müdam.

Dil evinə rövzən aç sinəm dəlib tiğinə kim,
Müntəzirdir fəthi-rahi-Kə'bə içün xasü am.

Ey könül, dövran çəkib gərdunə Keyvan məhmilin,
Şəmsdən Mərrixə vermiş tövsəni-zərrin-licam.

Çərx qalxanını zərrin qübbə etmiş mehrdən,
Mahi-növ tiğin şəfəqdən eyləmiş gülgun niyam.

Fəth əsbabini yüklətmiş qətari-həftəyə,
Ehtiyat üzrə olub görmüş səfər qeydin təmam.

Qaliba sultani-divani-qəza hökm eyləmiş
Kim, verə Darüs-səlamə düşməni-sərkəş səlam.

Hakimi-təqdirdən dövrana olmuş əmr kim,
Edə mülki-Bəsrəyi məhruseyi-Bağdadə ram.

Bağlamış himmət bu fərmanı sərancam etməgə,
Həzrəti-paşayi-Keyvanqədrü gərdün ehtişam.

Sərfərazi-aqibət-Məhmudü qutbi-raströv,
Ə'dəli-əqran Əyasi-nikrə'yü niknam.

Ol Məsihadəm ki, əmvati-aləm ehyasına
Xaki-dərgahindədir keyfiyyəti-yöhyil-izam.

خلّد اللّهم تكريماً لنا اقباله
احسن اللّهم في ايّامه حال الانام

Ey qübari-dərgəhindən qədri-gərdun ariyət,
Vey füruği-mehri-ruyindən səfayi-sübh vam.

Dövrdən hasil sənə daim nəşati-müstəzad,
Bəxtdən ruzi sənə peyvəstə cahi-müstədam.

Cami-bəzmi-rəzmin içməkdə dili-düşmən kəbab,
Dəf'i-nari-qəhrin etməkdə xəyali-xəsm xam.

Hər şüayi-xəncərin bərqi-fənadən bir şərər,
Hər sədayi-navəkin mülki-ədəmdən bir pəyam.

Ömrlərdir qətli-ə'dadən əcəl çəkmiş əlin,
Onu divani-qəzadən tiğin etmiş iltizam.

Həq təaladan sənə fəthi-dəmadəm lütfi-xas,
Səndən əhli-aləmə lütfi-peyapey feyzi-am.

Rəzmgahində mizaci-tiğü təb'i-rümhüni,
Müxtəlif qılmış təriqi-iftiraqü iltiyam.

Çalışıb hər bir əduni tiğin etdikcə iki,
Hər iki bir olmağa rümhün qılır iqdami-tam.

Qəsdi-fəthi-mülk qılmışsan, mübarəkdir bu rə'y,
Əzmi-dəf'i-düşmən etmişsən, müyəssərdir bu kam.

Çox zəmanlardır ki, seydi-mərdümi-tüccar içün
Rəhgüzari-hində qurmuşdur həsari-Bəsrə dam.

Onda qanlar yurddurubdurlar tərəddüd əhlinə,
Gəldi ol dəm kim, çəkə tiğin olardan intiqam.

Dəprənən ləşkərmidir, ya Dəclədir Bağdaddən
Eyləyib tüğyan Cəzayirdən yana qılmış xüram?

Dutmağ olmaz böylə seylabın yolun xaşak ilə,
Qılmasınlar mən'inə əhli-Cəzayir ehtimam.

Yel buraxdı Hind dəryasinə əzmindən xəbər,
Titrədi dərya, məhabət Hind sübhin qıldı şam.

Qıldı Qütbül-Mülki təhrikin yerində müntərif.
Getdi xövfünlə Nizamül-Mülk mülkündən nizam.

Vəhmi-tiğin eylədi əhli-Firəngi zərdrəng,
Qıldı gərdi-ləşgərin səhrayi-Hindi mişkfam.

Mişk söylərsəm sipahin gərdinə, qılman xəta
Çün Füzuli xəstəyə ondan müəttərdir məşam.

Ta şəbü ruz ixtilafiylə müqərrərdir mədar,
Ta məhü xurşid dövranında mümkündür dəvam,

Var ümidim, xabi-qəflətdən həsudun durmayıb,
Bəxtini bidar edə tövfiqi-Həyyi-layənam.

* * *

Irişdi vəqt ki, gül basa busitanə qədəm,
Cəhani eyləyə lütfi-bahar rəşki-Irəm.

Verə bənəfşə ilə bərgi-ərğəvan çəmənə
Səfayi-ziynəti-peyvəndi-abinusü bəqəm.

Həvadən eyləyə əşcari əbr gövhərbar,
Səhifeyi-çəmən üstündə jaləvü şəbnəm.

Günəşdən ola sipehri-kəvakibü səyyar
Çinar sayəsi altında səbzeyi-xürrəm.

Səhifeyi-çəmən üzrə tərəddüd edə nəsim,
Məsih cilvəgəhi ola daməni-Məryəm.

Üqudi-şəbnəm ilə ruzü şəb hərarəti-mehr
Xütuti-səbzəyi gəh möhməl edə gəh mö'cəm.

Müsavi ola lətafətdə asimanü zəmin,
Bərabər ola yügürməkdə əşhəbü ədhəm.

Çəməndu oxuna hökmi-əyaləti-novruz,
Misali-hökmə nisar eyləyə şükufə dirəm.

Rəvacbəxş ola gülzarə e'tidali-həva,
Nəçük ki, xütteyi-Bağdadə sərvəri-ə'zəm.

Güli-bəhari-ədalət, nihali-gülşəni-cud,
Şükufeyi-çəməni-lütfü sərvi-baği-kərəm.

Məhi-sipehri-əyalət Əyas paşa kim,
Əsasi-mülkdür əndişəsilə müstəhkəm.

Bülənqədr cənabi ki, rə'yi-rövşəninə,
Degil dəqayiqi-adabi-səltənət mübhəm.

Müşərrəf eyləməmiş bir onun kimi kamil,
Səriri-səltənəti ondan əsbəqü əqdəm.

Vücudi-kamilinə yox nəzir aləmdə,
Nə ehtiyac ki, mən söyləyəm, bilir aləm.

Əya büləndnəzər afitabi-övci-şərəf
Ki, xəlq rizqinədir dəsti-himmətin məqsəm.

Fəqiri-süfreyi-ən'amın əğniyayi-zəman,
Ğəriqi-ne'məti-ehsanın övliyayi-niəm.

Hərimi-dərgəhinə əzm edən fəqirlərə
Nisabi-ne'mət ilə fərz olur təvafi-hərəm.

Təqərrübün sənin ol rütbeyi-səadətdir
Kim, onda lazım olur qürbi-Həqtəala həm.

Ümid ilə tutalı daməni-ədalətini,
Irişməz oldu giribani-mülkə dəsti-sitəm.

Qəza yazanda sənin isminə bəqa mülkün,
Qılır ədulərini növki-tiğin ilə qələm.

Bu olmasaydı qərəz, səfheyi-vücudə qəza
Sənin ədulərin ismini eyləməzdi rəqəm.

Fəsad tə'nəsin insanə eyləyən mələki,
Gər etməsəydi sənin hüsni-siyrətin mülzəm,

Fəsadə qail olub infialdən başın
Yuxarı qaldıra bilməzdi bir bəni-adəm.

Təharətü vərə'ü zöhdü təqva ilə müdam
Binayi-hüsni-sülukindir ol qədər möhkəm

Ki, bəhri-hiyleyi-Iblis ona gər olsa mühit,
Təsəvvür eyləmək olmaz kim, ol bina çəkə nəm.

Gəlib hüzurinə görsəydi pak məşrəbini,
Çalardı xiclət ilə cam tövbə daşına Cəm.

Girüb sipahinə olsaydı vaqifi-rəzmin,
Təfaxür etməz idi zərbi-tiğilə Rüstəm.

Bu növ ilə ki, zamanində cismi-mülk müdam
Bulur həyati-mücəddəd, zəmin-zəman, dəm-dəm,

Vücud hifzini lütfün əgər edinsə murad,
Binayi-feyz ilə məsdud olurdu rahi-ədəm.

Müqərrər eylədi gərdün ki, dəhr durduqca,
Nihali-qamətini bari-qəmdən etməyə xəm.

Zəmanə üzrə görən sayeyi-ədalətini
Rəvamidir ki, edə sayeyi ədaləti kəm.

Şəha, Füzuliyi-zarəm ki, çərxi-bihudəgərd,
Salıbdır ayineyi-təb'imə qübari-ələm.

Tənimdə zəxmi-xədəngi-bəla, vəli şadəm
Ki, lütfün olsa, bulur cümlə zəxmlər mərhəm.

Ümid var ki, təsxiri-mülki-aləm içün
Fəzayi-çərxdə çəkdikcə afitab ələm,

Zaman-zaman yüzünə bağlı qapılar açıla,
Nəfəs-nəfəs olub əfzun qapında xeylü həşəm.

Müyəssər ola ki, tövfiqi-fəth ilə tiğin
Ola Iraqi-Ərəbdə kilidi-sülhi-Əcəm.

* * *

Ey müsəffa şişeyi-cövlaneyi-firuzəfam,
Mə’dəni-yaquti-səhba, gülbüni-gülbərgi-cam!

Qönçeyi-gülzari-hikmət, höqqeyi-şəhdi-səfa,
Dürci-dürri-mə’rifət, me’yari-idraki-təmam.

Pərdədari-düxtəri-raz, dayeyi-bintül-inəb,
Məhrəmi-sultani-mey, mətbui-əbnayi-giram

Əl dutub, düşmüşləri bir-bir əyağə duğruzan,
Sərf edən varın könüllər açmağa hər sübhü şam.

Nazənin dilbər kimi əhbabə qanlar yudduran,
Dərd ilən aşiq kimi qanlar tökən gözdən müdam.

Vəh, nə cövhərsən ki, bilməz hiç kim xasiyyətin,
Əczi-övsafındadır təqsirə qail əqli-tam.

Gəh gülüb qəh-qəh, tər eylərsən dimağın məclisin,
Gəh əgilüb xəlqə üzrilə qılırsan ehtiram.

Nə duadır bilməzəm qülqül deyib zikr etdiyin
K’ol duanın hörmətin vacib bilibdir xasü am.

Əql alırsan, can bağışlarsan kəmali-sehr ilə,
Divi salıb şişəyə, odu qılırsan suyə ram.

Gah durmaq, gah əgilmək, gəh əyağə düşməgin,
Zahir eylər gəh sücudü gəh rüku’ü gəh qiyam.

Bir riyayi zahidə bənzər sülukin kim, ola
Dışrası təqva ilən ziyba, içi dolu həram.

Yox, yox, ətvarin münəzzəhdir riyadən, şübhəsiz,
Səndə müzmərdir xəvasi-şərbəti-yöhyül-izam.

Qılmasınlar tə’nə, gər meyxanələr seyr eyləsən,
Sufiyi-safidərunsan, zairi-Beytül-həram.

Əl'əmanət, ey çirağі-əhli-qədrü e'tibar,
Əlmürüvvət, ey nizami-əhli-izzü ehtişam.

Çün səfayi-niyyətin tövfiqi-hüsni-siyrətin,
Qıldı qürbilən səni bəy xidmətində şadkam.

Umduğun sərmənzili-məqsuduna basdın qədəm,
Kimsə məhrəm olmayan dərgahdə dutdun məqam.

Xatirindən çıxmasın məhrum olan üftadələr,
Tanrıçün yadında tut gər düşsə təqribi-kəlam,

Ərzə qıl məndən dua ol mə'dəni-insafə kim,
Feyzi-ədlilə pərişan mülk tapmışdır nizam.

Harisi-mə'mureyi-Bağdad, qütbi-əhli-Rum,
Hamiyi-mülki-Həma, müstəhfizi-sərhəddi-Şam,

Veys bəy həzrətləri, xurşidi-övci-iqtidar,
Şəhriyari-nikrə'yü nikbəxtü niknam.

Əmri-iqbalın mürəttəb qılmağa olmuş ona,
Şam bir hindu kənizək, sübh bir rumi qulam.

Ol biri təzyini-xəlvətgahinə iqdam edib,
Bu biri tərtibi-eyvanına eylər ehtimam.

Camə qılmış Cəm sifarişlər ki, yetgəc bəzminə,
Öp əlin, ixlasımı ərz et, yetir məndən pəyam.

Badəyə Cəmşid əmanət yukləmiş kim, Tanrıçün,
Görgəc onu düş əyağinə, yetir məndən səlam.

Ey xuraman sərv kim, ta dövrə gəlmişdir qədəh,
Görməyibdir sən kimi bir türfə sərvi-xoşxüram.

Sağəri-xülqin nəsimindən müsəffadır dimağ,
Badeyi-lütfin şəmimindən müəttərdir məşam.

Qanda kim, girdisə düşmənkam çıxdı cami-mey,
Şükri-lillah kim, sənin bəzmində oldu dustkam.

Özgələr dövründə çox qan yuddurubdur sağərə,
Dövri-zalim verməyib tərtib olan bəzmə dəvam.

Dövləti-cavid imdadilə firsətdir bu gün,
Sağər iste'cal edib dövrandan alsa intiqam.

Sərvəra, farig deyil səndən Füzuli bir zəman,
انّه مستدعی استبقاؤکم بین الانام
اشرقت منکم علی الظلماء انوار الهدا
خلّدت آثار انوار بها زلل الظلام

❁ ❁ ❁

Bu bəhri-niylgun min mövc hər saət əyan eylər,
Ülül-əbsarə bir-bir kəşfi-əsrari-nəhan eylər.

Nişani-kəsrəti-əşya dəmadəm əhli-təqlidə
Rümuzi-nukteyi-tövhidi-Həq xatirnişan eylər.

Bəyani-macərayi-masələf hal əhlinə bir-bir
Zəbani-halilən keyfiyyəti-qüdrət bəyan eylər.

Tənə'ümdə qürurü fəqrdə hirman şüar etmə
Ki, hikmət bu iki halətdə xəlqi imtəhan eylər.

Verür fəqr içrə şükr əhlinə qədri-Musiyi-İmran,
Tənə'üm içrə tərk əhlin Süleymani-zəman eylər.

Xoşa ol kim, bilib fəqri tənə'üm, mülki-dünyanın
Yoxun eylər təsəvvür var, varın yox güman eylər.

Ziyanü sudini dəhrin fəna fəhm eyləyən arif,
Həyatın sud sövdasilə sərf etsə, ziyan eylər.

Yamanlıq, yaxşılıq keyfiyyətin mə'lum edən aqil,
Yamanlıq edənə yaxşılıq etməzsə, yaman eylər.

Fələk guya degil əhli-fərasət kim, fəna əhli
Cəfasından onun peyvəstə fəryadü fəğan eylər.

Mən ondan istərəm tə'zimü təkrimü təvanalıq,
Məni gün-gündən ol zarü zəifü natəvan eylər.

Tənimdə zə'fdən bir üstüxan qalmışdurur, gərdun
Müdam ol üstüxani qəm xədənginə nişan eylər.

Nəçün kim xakidani-aləmi-süflidə adətdir,
Kəmandar ox atan saət nişanın üstüxan eylər.

Irişməz kimsədən əhvalimə feyzi-nəzər, bəs kim
Məni zə'fi-bədən daim nəzərlərdən nihan eylər.

Könül viranəsin mə'mur qılmaq qəsdinə çeşmim,
Üzarim üstünə cədvəl çəkib sular rəvan eylər.

Bieyni öylə kim, cədvəl çəkib sular qılıb cari,
Əmiri-kamiran viranə yerlər abadan eylər.

Məhi-övci-səxa Əlvənd bəg, k'ol mə'dələt pişə
Ki, ədli hər zaman ruhi-Rəsuli şadman eylər.

Zəhi saleh ki, daim iqtidayi-əmri-mə'rufun
Itaət əhlini asibi-duzəxdən zəman eylər.

Ona qılsın itaət buyruğiylən eyləsin taət,
Qiyamət vəqti hər kim meyli-gülzari-cinan eylər.

Verir Qur'an yerinə sihhəti-taət əgər zahid,
Nəmaz içrə duayi-dövləti virdi-zəban eylər.

Əgər tə'lim versə surəti-divarə əhli-dil,
Qılıb kamil qamu mə'nidən onu nüktədan eylər.

Əya pakizə əxlaqü fələkqədrü mələksiyrət
Ki, hər nakamə yetsə iltifatın kamiran eylər.

Bəhar əyyaminə gər feyzi-əxlaqın əsər salsa,
Həvasini qılır canbəxşü əbrin dürfəşan eylər.

Xəzan fəslini gər təb'i-lətifin tərbiyət qılsa,
Tökər altun vərəqlər, adını bərgi-xəzan eylər.

Kəmali-himmətin çün mülk tə'mirinədir sa'i,
Qamu səhraləri, əlbəttə, bağü busitan eylər.

Bu gündən sonra qalmaz hiç viran mülk, heyranəm
Ki, cüğd abad yerdən qaçsa xanda aşiyan eylər?

Bu gündən sonra səhralar olur mərdümnişin, ya Rəb,
Əgər vəhşi gəlib ram olmasa, qanda məkan eylər?

Verir tə'mir mülki-bayirə barani-ehsanin,
Nəçük kim, abi-Xızr əmvati həyyi-cavidan eylər.

Sənə taət yetər ancaq bu kim, daim həvadisdən
Xəlayiq hifzini məhruseyi-əmnü əman eylər.

Xudavənda, sənə mənsubdur əhkami-şər'iyyə,
Nəçük gərdun mənə dövründə cövri-bikəran eylər.

Nə heyf etdim ona kim, dönə-dönə heyf alır məndən,
Nəsin öldürmüşəm kim, ləhzə-ləhzə qəsdi-can eylər?

Günahsız bağrımı qan eylədi caizmidir böylə?
Rizayi-Həqq üçün bir sor ki, nahəq nişə qan eylər.

Füzulidən götürmə sayeyi-əltafü ehsanın,
Kəmali-ədlini zikr ilə məşhuri-cəhan eylər.

Ümidim var kim, ta asimandır dövrlən dair,
Sənin rə'yincə olsun dövrlər kim, asiman eylər.

* * *

Bir gün ki, dey əlamətin etmişdi aşikar,
Tutmuşdu üz füsürdəligə təb'i-ruzigar,

Badi-xəzan yetib hərəkati-şəni' ilə,
Hər yan dirəxt rəxtini etmişdi tarimar.

Sərsər hücumu qarəti-bustanə əzm edib,
Əslilə qoymamışdı ağaclarda bərgü bar.

Bərgini şaxi-gül yelə vermişdi sərbəsər,
Yə'ni, təcəmmülünə cəhanın nə e'tibar?!

Tey qılmış idi səbzə büsatını busitan,
Yə'ni ki, mö'təbər degil əsbabi-müstəar.

Yel böylə fəsllərdə təmənnayi-künc edər,
Mən eylədim səba kimi gülşən yana güzar.

Bir bağə düşdü rəhgüzərim gördüm onda cəm',
Tərtibi-eyş qılmağa əsbab hər nə var.

Dolmuş qədəh şərab ilə gəlmiş araya kim,
Gər lalə getdi isə, mənəm şəm'i-laləzar.

Minayi-səbz lütflə dolmuş əyağə kim,
Gər qönçə fani oldu, mənə ömri-payidar.

Gəlmiş kəbab dövrə və söylər ki, ey qədəh,
Hərgiz tutarmı xidməti-yaran edən qərar?

Hər türfə nəxl bərgi-xəzan ilə bağlamış,
Meyli-imarət eyləyibən taqi-zərnigar.

Yığmış fəzayi-bağə xəzan bərgi xiştlər,
Guya həva hücuminə tutmaq dilər həsar.

Əlqissə, ol büsatdə mən gərmi-şövq olub,
Aldım mətai-zövq, verib nəqdi-ixtiyar.

Oldum təmam qərqeyi-dəryayi-şövqü zövq,
Dutdum təriqi-rabiteyi-əqldən kənar.

Hər dəm bir iltifatə fəda eylədim xirəd,
Hər ləhzə bir həvəsdə nisar eylədim vüqar.

Hər kim əyağ sundu mənə, mən ayağına
Cinsi-həvasü nəqdi-xirəd eylədim nisar.

Ərvahi-qüds bəzmi imiş, onu bilmədim,
Mən məstü bixud oldum, olar qaldı huşiyar.

Bihuş düşmüşəm mütəğəyyir mizac ilə,
Qafil ki, leyldirmi keçən dövr, ya nəhar.

Olmuş hücumi-hadisədən huş müntəzim,
Qılmış səfayi-əql meyi-tirədən fərar.

Bir ləhzeyi ki, seyqəli-idraki-müstəqim,
Nagəh götürdü ayineyi-təb'dən qübar,

Açdım gözümü görmədim ol bəzmdən əsər,
Həqqa budur təbiəti-dünyayi-bimədar.

Qılmaz qamu qəziyyədə əmrinə müstədam,
Olmaz cəmii-əmrdə bünyadi üstüvar.

Gördüm yerim fəzayi-bisati-sürur ikən,
Olmuş məziqi-məzbəleyi-əczü inkisar.

Həmsöhbətim cəmaəti-əhli-qəbul ikən,
Olmuş nədimü həmnəfəsim neçə murü mar.

Cismim cəfayi-şiddəti-bərd ilə natəvan,
Başım bəlayi-hadisə daşiylə səngsar.

Əhli-cəfa tənimdə olan kisvətim alıb,
Qoymuş məni bürəhnəvü lərzanü xarü zar.

Nə bir rəfiq kim, ola ol dəmdə dəstgir,
Nə bir ənis kim, ola ol qəmdə qəmküsar.

Iyzəd üzümə bağlamış əbvabi-rəhmətin,
Yə’ni, budur nəhayəti-üsyani-badəxar.

Çox badə bəzmi-dövrdə nuş etmişəm, vəli,
Mən hiç meydə görməmişəm bu sifət xumar.

Həm zillət ilə dərgəhi-xaliqdə münfəil,
Həm heyrət ilə xəlq arasında şərmsar.

Dövranə eylədim bu müsibətdə e’tiraz:
K’ey çərxi-bimürüvvətü bədəhdi-nabəkar.

Bir ömrdür ki, məcməi-əhli-kəmaldə,
Eyşü nişat ilə içirəm cami-xoşgüvar,

Hərgiz özümü görməmişəm böylə bişüur,
Hərgiz özümü görməmişəm böylə xakisar.

Meyxanələr mücaləsətindən alıb sürur,
Mey təb’imə olurdu fərəhbəxşü sazikar.

Hala nə vaqe’ oldu ki, verdin bu gün mənə,
Nöqsani-irzü malü şikəsti-təni-figar?

Dövran cəvab verdi məni-natəvanə kim:
Ey xəstə! Bu müsibətə səbr eyləgil şüar!

Iyzai-cismü can nəsihətdürür sənə,
Idrak əhlisən, bu nəsihətdən etmə ar!

Aldanma mey nişatinə vü demə dəmbədəm
Kim, nişə böylə onu həram etdi Kirdigar?

Hər əmrü nəhyə ibrət ilən e'tibar qıl,
Hər işdə e'tibari şüar eylə zinhar!

Dəf' oldu ol müsibətü ondan əyan olan,
Təhqiqi-sirri-hikməti-Həq qaldı payidar.

Gər getdi rəxt, nəxl kimi qılma iztirab,
Səbr et kim, küdurətə həm yoxdur e'tibar.

Bu rəsmdir bürəhnə olub qışda hər dirəxt,
Təcdidi-kisvət eyləmək əyyami-növbəhar.

Sən həm nihali-növrəsi-gülzari-eşqsən,
Gər getdi bərg, xatirinə yetməsin qübar.

Kəsmə bəhari-lütfü kərəmdən ümidini,
Təcdidi-rəxti-tazəyə olgil ümidvar.

Cüz'i xəsarət ilə məlul olma, şükr qıl,
Bəg xaki-dərgəhinə fəda böylə səd həzar.

* * *

Yenə açıldı gülü qıldı cəhani xürrəm,
Çəmənarayi-vücud oldu güli-bağı-ədəm.

Müjdeyi-lalə vü gül verdi məgər badi-bəhar
Ki, nisar etdi şükufə ona dinarü dirəm.

Lalə bir rəng ilə kəşf eylədi əsrari-dərun
Ki, dili-xakdə qalmadı rümuzi-mübhəm.

Şəm'i-gül verdi çəmən bəzminə bir nurü sürur
Ki, çirağ ilə bulunmaz əsəri-zülməti-qəm.

Baddən qönçələrə hamilə oldu gülbün
Öylə kim, Isaya Cibril dəmindən Məryəm.

Dəmi-canbəxşini guya yelə vermiş Isa
Ki, bulur can təni-əşcar dəmindən hər dəm.

Dəm bu dəmdir, bu dəmi xoş görəgör, ey arif,
Anma Isa dəmini, urma keçən dəmdən dəm!

Səbzəxiz oldu həvadən ölülər toprağı,
Səbzə hər lövhi-məzarə bu xəti qıldı rəqəm:

Ki, niçün qəflət ilə fövt ola bir mövsim kim,
Ola ondan dirilər tək ölülər həm xürrəm.

Xaki-Cəm üzrə çıxıb lalə, dutub camını der
Ki: kimin var isə bir camı, bu gün oldur Cəm.

Adəmi istəsə topraqdə, əlbəttə, bulur
Bu gün ol feyzi ki, toprağı edibdir Adəm.

Səbzədən jəng əyan eylədi ayineyi-bağ
Bəs ki, çəkdi dünü gün şəbnəmi-barandan nəm.

Türfə kim, səbzə ilə rövnəqi-bağ oldu ziyad,
Gərçi hər ayinədən jəng səfa eylər kəm.

Bülbülə minnət edib dün der idi badi-bəhar
Ki: mənəm vasiteyi-rövnəqi-mülki-aləm.

Dedi bülbül ona: ey əhli-xilaf, eyləmə laf!
Bir həya qıl, bu sözü söyləmə, əbsəm, əbsəm!

Sən əgər bilməz isən, cümleyi-afaq bilir
Ki, kimindir bu mübarək əsəri-feyzi-qədəm.

Tazə gülzari-vəzarətdə açılmış bir gül,
Vermiş afaqə nəsimi-əsəri lütfi-İrəm.

Qılmış ondan bu səfa kəsbini gülzari-vücud,
Olmuş onunla bu bünyadi-lətafət möhkəm.

Ol sərəfraz kim, onun kimi bir fərrüx rüx
Payeyi-qədrə qədəm basmadı ondan əqdəm.

Ondan aldı əzəmət əmri-vəsarət, guya
Hökm üçün şimdi Süleymanə verildi xatəm.

Ona xətm oldu rəhü rəsmi-hökumət, guya
Şimdi nəsb oldu bu dərgahə vəziri-ə'zəm.

Hüsni-rə'yilə bu gün hökmə girir divü pəri,
Zərbi-tiğilə bu gün fəth olur iqlimi-Əcəm,

Ki, Süleymani-zəman Asəfi etdi nayib,
Oldu sərəskəri-Keyxosrovi-dövran Rüstəm.

Ol cavanbəxt ki, icrayi-ədalətdə müdam,
Nəsəqi-şər'ilədir əmri-şərifi töv'əm.

Pərtövi-rəhməti-Həq həzrəti-Rüstəm Paşa
Səri-ərbabi-səxa, sərvəri-pakizəşiyəm.

Gər səbadən xəbəri-ədlin eşitsə, edəməz
Şəm' pərvanəyə mütləq diri olduqca sitəm.

Mülk nəzminjə əgər hökmünə olsa vaqif,
Zülfi-məhbubi həva eyləyə bilməz dərhəm.

E'tidal istəsə ərkani-mizacə ədli,
Irişür sihhəti-am ilə ətibbayə ələm.

Feyzi-nüsrət bulur, əlbəttə, cahangirligə
Himməti hər kimə xurşidsifət versə ələm.

Səfheyi-namə kimi cəzm dutar hər yerə kim,
Kilkvəş çəksə süturi-sipəhi xeylü həşəm.

Rif'əti-qədrini xurşidə sual etdi zəmin,
Xaki-dərgahinə yad eylədi xurşid qəsəm

Kim, onun bulmayıb əhvalına bir zərrə vüquf,
Qalmışam daireyi-heyrət içində mən həm.

Taəti-Xaliqədir hüsni-risasi dai,
Rizqi-məxluqə kəfi bəhri-nəvaliməqsəm.

Bəhrü kan eyləsələr də’viyi-ehsanü səxa,
Kərəmü cudini gördükdə olurlar mülzəm.

Qanı ol rütbə ki, cudiylə onun bəhs edə bəhr,
Qanı ol hövsələ kim, kan kərəmdən ura dəm.

Hər nə tədric ilə min ildə verə bəhreyi-kan,
Hər nə yüz ildə mürur ilə olur hasili-yəm,

Bəzl bir dəmdə edər məclisinə xazini-cud,
Sərf bir gündə qılır bəzminə qəssami-kərəm.

Billah ər görmüş olaydı kərəmi-bibədəlin,
Onu mö’cüz sanıb iymanə gəlirdi Hatəm.

Sərvəra, cümleyi-afaqə yetirmiş ədlin
Vüs’ət üzrə əsəri-rabiteyi-xani-niəm.

Nola gər dari-şəfayi-kərəmindən yetsə
Bu Füzuliyi-diləfgarinə həm bir mərhəm.

Var ümidim ki, cahan olmaya xali səndən,
Necə kim, var nücumü fələkü lövhü qələm,

Şüğli-aləm ola tədbirin ilə rast müdam,
Qəddi-gərdun ola pabusin içün daim xəm.

* * *

Bihəmdillah vəl-minnə ki, tövfiqati-rəbbani
Yetirdi mənzili-məqsudə İbrahim sultani.

Təriqi-Kərbəla, rahi-Nəcəf bir rəhbər istərdi,
Bu yolda gördü Həq Xizr olmağa sultani ərzani.

Vilayət dürlərinin mə’dənidir övliya bürci,
Əmini-Həq görüb sultana tapşırdı fələk ani.

Əya sultani-ali-himmətü sərdari-adildil
Ki, sənsən gövhəri-insafü dürri-mə’dələt kani.

Müştərrəf eylədi zati-şərifin xaki-Bağdadi,
Imarət qıldı rə’yi-gəncbəxşin mülki-virani.

Səfa tapdı visali-məqdəmindən yenlə can baği,
Əsas aldı binayi-himmətindən ədl eyvani.

Qədəm basdın diyari-əşrəfi-Bağdadə vü bir-bir
Məzaratü büqaül-xeyr səndən oldu nurani.

Ziyarətlər ki, qıldın, asitanlar kim, təvaf etdin,
Qəbul olsun ki, tapdın hər birindən feyzi-Rəbbani.

Məqami-Qənbərü övladi-Fəzlü bə’zi əhli-beyt
Təvaf etdin, cəvanmərdanə qıldın ərz ehsani.

Əlinin pəncəsin qıldın ziyarət kim, müqərrərdir,
Yeni gördükdə məxdumin əl öpmək bəndəfərmani.

Ziyayi-rif’ətindən sayə buldu, seyr vəqtində
Gəhi Bəhluli-divanə, gəhi Mənsuri-həqqani.

Həmişə xəsmini şahi-vilayət daşə döndərsin
Nəçük kim, gördün etmiş mö’ciz ilən daş arslani.

Məqami-mintəqə tövfin qılıb oldun kəmərbəstə,
Öpüb övnü müin dərgahın etdin tazə imani.

Cəvadü Kazimin əttari-Bağdad olduğun bildin,
Üz urdun, tapdın ol əttardən hər dərdə dərmani.

Təqiyyü Əskəriyyü Mehdiyə ənsar göndərdin
Ki, alayişli kafər ləşkərindən saxlaya ani.

Fərati-paktək Babil diyarına qədəm basdın,
Bər övci-Zöhrə oldu səndən ol Haruti-zindani.

Misali-məşhədi-Şəmsü məzari-Cümcümə bir-bir
Təmaşasiylə gördün mö’cizati-Şahi-mərdani.

Əqiyl ibni-Əbitalibdən istimdad edüb himmət,
Təriqi-Kərbəlayə başladın əqranü ə’yani.

Çü dəşti-Kərbəlayə ləşkəri-islami cəm’ etdin,
Yəqin oldu ki, şahi-Kərbəlanın istənir qanı.

Ədayi-taətü ərzi-niyaz etdin, bihəmdillah
Ki, məqbul oldu Beytullahə Ibrahim qurbani.

Yetirdin niyyəti-pakilə bir-bir cəddü abayə
Səlami-rövzeyi-pakizeyi-Şahi-Xorasani.

Bu gün sərmənzili-məqsudə yetdin rahi-vəhdətdə,
Rəfiq oldu sənə tövfiq, tapdın vəsli-canani.

Nə canan, cani-mütləq, bəlkə candan əfzəlü əşrəf
Ki, dərgahində eylər can nisarın insivü cani,

Xudanın “Innəma” qövlində xəlq içrə vəliəhdi,
Rəsulin “ləhmükə ləhmi” səri-xanında mehmani.

Gəhi-möhtacə vermiş Qənbəri tüğyan edib lütfi
Gəhi arslandan almış müztərib halətdə Səlmani.

Tüfeyli-gövhəri-zati-şərifi Adəmü aləm,
Fədayi-cövhəri-cismi-lətifi bəhrivü kani.

Əmirül-mö’minin Heydər Əliyyibni-Əbitalib
Ki, Cibrili-əmindir xəlvəti-vəhdətdə dərbani.

Nədir dünyavü üqba bi-rizayi-Mürtəza billah,
Nə ol baqi gərək sidq əhlinə, mültəq, nə bu fani.

Müdam ol kim, bu dərgahin qamu sadatü xüddamin
Sərasər cəm’i-xatir qıldın ol cəm’i-pərişani.

Məni-qafildən agah ol ki, bir kəmtər sənaxanəm,
Gərək səntək sərəfrazın mənimtək bir sənaxani.

Füzuli, bu hərəm içrə şəbü ruzü gəhü bigəh,
Duayi-xeyr qıl sutanə, tərk et rəsmi-nisyani.

Nə övradü dua kim, qıldı sultan asitanlarda,
Qəbul olsun, budur dilşad edən yüz min müsəlmani.

* * *

Yenə dəşt sərsəbzdir, fəsl xürrəm,
Cahan bitəkəllüf, təkəllüfdə aləm.

Nəbatat əmvatinə vermiş ehya
Həvayi-Xizrxislətü Isəvidəm.

Məsihi-şükufə zuhurinə mütləq
Səba ətseyi-Adəmü şax Məryəm.

Bisati-bəsatinü bəsti-rəyahin
Biri faricül-həm, biri kaşifül-qəm.

Gül övraqi əşcardə eylə müzmər
Ki, mə’niyi-nadir ibarətdə müdğəm.

Güli-sürx suri-ərusi-Müqənnə,
Dirəxti-şükufə nigari-müəmməm.

Ənadil xətibinə gülbün mənabir,
Şükufə sipəhinə gülzar müxəyyəm.

Bu gün zülfi-əhli-məlahətdən özgə,
Degil hiç kəs müztərib-halü dərhəm.

Bu gün əbrü badi-bəharidən özgə,
Degil kimsə sərgəştəvü didə pürnəm.

Baharındır, aya, bu tə’sir bilməm
Və ya dövləti-feyzi-xaqani-ə’zəm.

Fələk mərtəbə, qütbi-xurşid seyri
Ki, novruzi-ədlilədir mülk xürrəm.

Misali-əsalətdə ismilə cari
Əzəl ta əbəd hökmi-tuğravü xatəm.

Hesabi-səxavətdə əmrilə mücra
Gəda adına hasili-mə’dənü yəm.

Əgərçi zəmanında mümkündür etmək,
Gəda gənci-dinarü dirhəm fərahəm.

Bulunmaz bu mə’murədə bir xərabə
Dəfin olmağa gənci-dinarü dirhəm.

Nəzər feyzi-ruhi sifatında aciz
Xirəd cövhəri cism dərkində mülzəm.

Kəmalət kəsbinə əqli-nəsr rə’yət
Rüxi-məhvəşi rə’yəti fəthə pərçəm.

Inan bər inan fəthü nüsrət rəfiqi,
Nə sarı ki, qılsa əzimət müsəmməm.

Səmiyyi-Xəlil əxtəri-bürci-hikmət
Ki, rəxşinədir ğaşiyəkəş yüz ədhəm.

Qəzatək zəmirinə izhar daim,
Həm əf’ali-mütqən, həm ə’mali-mübrəm.

Qədərtək vüqufinə inşa həmişə
Həm əşkali-müğlət, həm əsrari-mübhəm.

Hökumətşiara, vilayətpənaha
Ki, cahi-hökumət sənədir müsəlləm.

Əgər mahə mehri-rüxün salsa pərtöv,
Məh olmaz dəxi mehrdən zərrəcə kəm.

Əgər yetsə pərvanəyə hökmün, ey şəm',
Qılır mehr hazır şəbi-zaci-müzləm.

Şərabi-məzaqında keyfiyyəti-şəhd,
Mizaci-sinanında xasiyyəti-səm.

Sənin paybusin təmənnası birlə,
Qədimtək qədi-asiman müttəsil xəm.

Zəmin paybusinlə bir qədr bulmuş
Kim, ol qədrə qadir deyil asiman həm.

Şəha, sənsən ol gövhəri-dürci-hikmət
Ki, səndəndir əhbəttə hər dərdə bir əm.

Nə dilriş kim zəxm tək açdı ağzın
Sənə ərzi-hal etməyə, tapdı mərhəm.

* * *

Vəh nədir ol tairi-fərxəndəbalü tizpər
Kim, olur bir türfə ayin ilə hər dəm cilvəgər?

Ağzı açıq, çıxmaz avazı, ayağı yox, yürür,
Can iləndir seyri, əmma demək olmaz canəvər.

Bir dəmirdən daşlü divar ilə müstəhkəm həsar.
Bir əsasi-qir ilən qaim, binayi-mö'təbər.

Yengi aydır hey'əti, amma yeni aylar kimi
Bədr olmaz, necə kim, göy üzrə sərgərdan gəzər.

Adəti uçmaqdır, amma quşların əksi müdam,
Uça bilməz müttəsil balü pəri olmasa tər.

Gəh Zəkərya kimi çəkmiş çox cəfalər bıçqıdan,
Gəh büti-Azər kimi olmuş giriftari-təbər.

Boynu bağlı bir qara quldur həvası qaçmağa,
Bulduğun alıb qaçar, saxlamasan şamü səhər.

Bir mübəssirdir ki, daim dideyi-heyrət açıb,
Asiman təhqiqi-əhvalinə salmışdır nəzər.

Sayılır pəhlulərinin üstüxani zə'fdən,
Böylə zə'f ilən ağır yüklər çəkər, eylər hünər.

Yerdə gəzməz vəhştək, amma yürür ondan rəvan,
Göydə üçmaz teyrtək, amma uçar ondan betər.

Gər bükülmüşdür qədi, eyb eyləmən, bir pirdir,
Nuh dövründən verər bir-bir, sual etsən, xəbər.

Baş açıb yağmurlara, suya batırmış kisvətin,
Yaş uşaqdır, lövhi sadə, hiç bilməz xeyrü şər.

Canı yox, lakin rizayi-xəlq hasil qılmağa
Gəh aşağa, gəh yuxaru yügürüb canlar çəkər.

Divə bənzər, gəzdirər başda Süleyman təxtini,
Yoxsa kandır, saxlanır köksündə qiymətli gühər?

Yoxsa zövrəqdir, onu qılmış mürəkkəb seyr üçün
Veys bəy həzrətləri, ol şəhriyari-namivər!..

Ey bəqayi-izzü cahin mövcibi-təmkini-mülk,
Vey sənayi-lütfü qəhrin mənşəi-nəf'ü zərər.

Xaki-payindən əgər bir zərrə tapsaydı sədəf,
Bəsləməzdi irtifai-qədr üçün mütləq gühər.

Öylə əmniyyətdir əyyamında kim, mün'imlərin,
Işrət israfından özgə malına yoxdur xətər.

Tişeyi-bənnayə derdi ərreyi-nəccar dün:
Zülmümüzdən həm həcər asudə oldu, həm şəcər.

Öylə kim ədlün zərər rəsmin götürdü mülkdən,
Ehtiyat üçün gərəkməz kimsəyə divarü dər.

Düşmənin məğlub olub daim zəfər bilməz nədir,
Sən qaçan kim əfv qılsan ol sanur onu zəfər.

Yol aparsaydı sənin ehsanına bir zərrəcə,
Afitabın minnətin çəkməzdi nur üçün qəmər.

Zövq üçün şövqün tapıb sərməst olan ariflərə
Hacət olmaz cami-mey içmək, sənin şövqün yetər.

Şami-bəzmin öylə rövşəndir ki, hər kim şəm'tək
Tapsa onun zövqünü, qılmaz təmənnayi-səhər.

Vəsfi-zatın həddən əfzundur, şəha, mə'zur tut
Kim, qılır ibram xövfindən Füzuli müxtəsər.

Var ümidim, ta bu dərya üzrə kəştiyi-hilal
Gah gəşti-xavər eylər, gah seyri-baxtər.

Baxtərdən xavərə olsun səlayi-sövlətin,
Şöhrətindən olmasın xali fəzayi-bəhrü bər.

* * *

Bu sürahi məsələn bir sənəmi-rə'nadır
Ki, dəmadəm tərəbəngizü nişatəfzadır.

Sərvtək qaməti-dilcu ilə üşşaqfirib,
Şəm'tək pərtövi-rüxsar ilə bəzmaradır.

Gülbüni-bağı-tərəb, qönçeyi-gülzari-fərəh,
Gül kim ondan açılır, cami-meyi-səhbadır.

Rəngi-zərdü meyi-sürxün görən eylər heyrət
Ki, xəzan içrə əcəb bu nə güli-həmradır.

Gah həmsilsileyi-aşiqi-xunindil olub,
Boynu zənciri-cünün qeydi çəkən şeydadır.

Gah yüz aşiqi-şeydayı qılıb məstü xərab,
Eyləməz hiç tərəhhüm, işi istiğnadır.

Bəzm üçün hər tərəfin türfə igidlər dutmuş,
Sanasan xəl'əti-zərbəft ilə bir mirzadır.

Batini-safilə bir sufiyə bənzər ki, müdam
Səcdəsində əsəri-sidqü səfa peydadır.

Kəhrübayi don ilən bir büti-sərkəşdir kim,
Cilveyi-naz ilə şəh məclisinə ziybadır.

Ol şəhənşah ki, feyzindən umar kam müdam,
Bəzmi-vəhdətdə əgər Xizrü, əgər Isadır.

Çakəri-çakəri fəğfur ilə xaqan oluban,
Bəndeyi-bəndəsi Iskəndər ilə Daradır.

Cəmü Cəmşid degil bəzmdə həmtası onun,
Sərvəri-bibədəlü xosrovi-bihəmtadır.

Xani-adil həm onun pərtövi-iqbalından
Bir əsər tapdı ki, sahibnəzərü binadır.

Nəş'eyi-zövq bulan cami-rizasından kam,
Bəzmi-eşqində qamu ömr qədəhpeymadır.

Ey Füzuli, dünü gün eylə dua sidq ilə kim,
Ola bu dövlətü iqbal ilə ta dünyadır.

* * *

Məgər qılır rəqəmi-vəsfi-xətti-yar qələm
Ki, xətti-yar kimi oldu mişkbar qələm.

Məgər dilər sifəti-lə'li-yar edə təhrir
Ki, lə'li-yar kimidir gühərnisar qələm.

Əgər cəfa çəkə surətnigardən yüz il,
Demən çəkə sifəti-surəti-nigar qələm.

Yazanda mimü əlif ol qədü dəhanə şəbih,
Kəmali-sehrinə çox qıldı iftixar qələm.

Vəli xüramü təkəllüm verirdə aciz olub,
Xətinə çəkdi xətü oldu şərmsar qələm.

Nə yerdə kim yügürər nafə-nafə mişk tökər,
Tutubdurur rəvişi-ahuyi-tatar qələm.

Xücəstə Xizrdir abi-həyat içmək üçün,
Zəman-zəman zülümatə qılır güzar qələm.

Nə içdi məhbərədən bilməzəm ki, valeh olub
Özünə eylədi sərgəştəlik şiar qələm.

Qara başın götürüb daim eldən-elə gəzər,
Tutarlar isə, dəxi eyləməz qərar qələm.

Bir öz başına ulalmış, qərarı yox, dəlidir,
Çıxınca dutmasalar, aləmi yıxar qələm.

Siyah bəxtlügi yazmış alnına təqdir,
Nola keçirsə qara gündə ruzigar qələm.

Dililə müttəsil öz başına bəla gətirər
Ki, xəlqə gizli sözü eylər aşikar qələm.

Ticarət əhlinə bənzər, müsafirət yoluna
Xütuti-sətrlərindən çəkər qətar qələm.

Qaradürür üzü ol vəchdən kim, eylər faş
Özüylə yarı arasında hər nə var, qələm.

Şikəstə naməleri yə'ni əhli-hüsnə satar
Mətai-məmləkəti-hindü Zəngibar qələm.

Öpər səhifə yüzün vəh görün bu talei kim,
Bulur vüsali-nigari-səmən'üzar qələm.

Midad türrəsinə üz sürər, zəhi dövlət,
Dutar həmişə səri-zülfi-tabidar qələm.

Onunçün əldən-ələ gəzdirir əkabir kim,
Tapubdur Asəfi-dövrandan e'tibar qələm.

Güli-hədiqeyi-iqbal Mustafa Çələbi
Kim, oldu dövləti-qürbüylə kamikar qələm.

Səmiyyi-Əhmədi-Mürsəl ki, qıldı ona tüfeyl
Dəmi ki, lövh ilə yaratdı kirdigar qələm.

Nəsimi-xülqünün övsafin etməgə təhrir,
Çəmən əlinə verir səbzə hər bəhar qələm.

Əya büländ cənabi ki, midhətində olur
Həmişə mö'tərifi-əczü inkisar qələm.

Riyazi-qədrdə fəzlin nihali-rif'ətdir,
Nihali-fəzlinə bir türfə şaxisar qələm.

Nihali-dövlətə qədrin riyazi-hikmətdir,
Riyazi-qədrinə bir türfə cuyibar qələm.

Əlinə almaz imiş Müstəfa qələm, derlər,
Bu zillət ilə bəsi olmuşuydu xar qələm.

Sənə yetirdi özün nisbətilə tapmaq içün
Zəmanədə sənin adınla e'tibar qələm.

Kəlimi-Turi-vəfasən ki, əhli-xeyrü şərə
Əlində gah əsa oldu, gah mar qələm.

Buraxdı canını darüş-şəfayi-dərgəhinə
Hücumi-hadisədən xəstəvü nizar qələm.

Əlindən içdigi şəhdi-şəfayi-hikmətdən
Mizaci-nazikinə oldı sazigar qələm.

Bəsi əzizlərin xidmətinə bağladı bel,
Qamunu tərkü səni qıldı ixtiyar qələm.

Səbati-əhdini əyyamdən qılıb mə'lum,
Səninlə eylədi əhdini üstüvar qələm.

Arayıb əhli-hünər varını yetincə sənə,
Cahan içində bəsi çəkdi intizar qələm.

Verib nizami-cahan Asəfü Nizamül-mülk
Gedib, cahanda sənə qaldı yadigar qələm.

Sənin mütiin əgər olmasaydı, olmaz idi
Səvadi-ə'zəmi-xətt içrə şəhriyar qələm.

Alınmış ağçanilən bir qulundurur müqbil,
Başın əgər kəsələr eyləməz fərar qələm.

Sözün yeritməgə başdan ayaq edib yügürər,
Kəmali-şəfqətinədir ümidivar qələm.

Sipehr mənzilətə, ol Füzuliyi-zarəm
Ki, hali-zarimi yazınca oldu zar qələm.

Sənayi-zatinə çoxdur sözüm, vəli nə deyim
Ki, süstlük qılıban verdi ixtisar qələm.

Dedi saqın, sözü çox etmə, saxla şərti-ədəb
Ki, çox sözündən olubdur siyahkar qələm.

Ümid var ki, nəzmi-nizami-aləm üçün
Fələkdə ta ola lövh ilə payidar qələm,

Sən olasan qələmə e’tibar üçün hami,
Sənə hökumət üçün ola dəstiyar qələm.

* * *

Bağ lövhinə xəzan bərgi zərəfşan eylər,
Ab ol lövhdə məşqi-xəti-reyhan eylər.

Ey könül, gəldi bahar, eylə çəmən seyranın,
Gör ki, hala nə əməl amili-dövran eylər.

Yenə piri-fələk ətfali-rəyahini yığıb,
Feyzi-tə’lim ilə bustanı dəbistan eylər.

Su ayağını kəsib bihudə gəzməklərdən,
Səbzəyi həmsəbəqi-dərsi-gülüstan eylər.

Qönçəyi mətni-mətaledə edib üqdəgüşa,
Laləni şərhi-təvaledə səbəqxan eylər.

Sünbüli elmi-ilahidə qılıb muyşikaf,
Susəni bəhsi-riyazidə süxəndan eylər.

Dərsi-məntiq oxur ikən dililən mürği-səhər
Dutulub, oxuduğu gülləri xəndan eylər.

Bülbülü hər neçə kim hafizi-xoşləhceyi-ab
Ögrədib hüsni-əda, qare’i-Qur’an eylər,

Gör nəzakət ki, gəlib sübh sühüfxani ona
Eybi-təqrir qılıb tə’neyi-əlhan eylər,

Fəsl keyfiyyəti-qanuni-tib etmiş hasil,
Bəhsi-təşxisi-mərəz, də’viyi-dərman eylər.

Şərbəti-badə ilən çox sınadım, xəstələrə
Eylər onu ki, nə Boqratü nə Loğman eylər.

Bilməzəm sehrmi, mö'cüzmü nəsimin işi kim,
Hərəkati xirədi-xiyrəni heyran eylər.

Hər mizacə ki, dilər öylə qılırmədxəl kim,
Onu idrak nə ərvahü nə əbdan eylər.

Həbbəza dəhr ki, peyvəstə səhabi-feyzin
Baisi-tərbiyəti-bağü biyaban eylər.

Qönçənin görsə açar rişteyi-təb'ində gireh,
Bülbülün bilsə işin, müşkülün asan eylər.

Intizar ilə daşı lə'l qılub rəng verür,
Ruzigar ilə suyu lö'löi-qəltan eylər.

Qətrəyi müddət ilən müttəsili-bəhr qılır,
Zərrəyi vasili-xurşidi-dirəxşan eylər.

Leyk qayətdə təəccüb qılıram ki, nə üçün
Məni-məhrümi həmin xəsteyi-hirman eylər.

Qeyrə ehsani çoxü lütfi yüküş, leyk mənə
Sitəmi vafirü bidadi firavan eylər.

Kaş bağrımı qəza su edə göz yaşı üçün
Çeşmətək, durmuyuban çün məni giryan eylər.

Kaş cismimi fələk daş edə, bidadə dözəm,
Mə'dəni-lə'l kimi çün cigərim qan eylər.

Yer yüzündün götürülməkdə gümanım dəxi yox,
Belə kim, tən çürüyüb, göz yaşı tüğyan eylər.

Bixəbərlər biləməz əşki-rəvanım əsərin,
Gərçi tənbihinə dil naləvü əfqan eylər.

Əhli-tüğyanə əsər eyləyəməz giryeyi-Nuh,
Gərçi hərdəm oları vaqifi-tufan eylər.

Ey fələk, bu nə rəvadır ki, sipahi-sitəmin
Dili-mə'murimi yəğma ilə viran eylər.

Bir deməzsənmi ki, nagəh sitəmindən bu fəqir
Qaziyi-əskərə şərhi-qəmi-pünhan eylər.

Ol qəzahökm ki, çərx etsə xilafi-rəhi-şər'
Qıldığından onu zəcr ilə peşiman eylər.

Ol qədər namə ki, muri-xətinin məzmuni
Nəyə kim zahir olur, hökmi-Süleyman eylər.

Ərştəmkinü fələkmərtəbə Qadir Çələbi
Ki, fələk tabe'idir hər nəyə fərman eylər.

Çərx bir tiğ çəkibdir yeni aydan ki, müdam
Kimi gördüysə müxalif, ona qurban eylər.

Min ilin bərhəmənin möv'izeyi-mə'rifəti
Qabili-din qılır, qaili-iyman eylər.

Ərzi-iyman bütə gər qılsa dəmi-canbəxşi,
Can verib mö'ciz ilən ani müsəlman eylər.

Ləfzi-canpərvər ilən rəşheyi-kilki hünərin
Nə dəmi-Isivü nə çeşmeyi-heyvan eylər.

Ey vərə'pişə ki, daim qədəmi-sabitini
Rəsmi-islamə qəza qaimi-ərkan eylər.

Rayizi-tündrəvü təb'i-lətifin dünü gün
Tövsəni-fikrətilən çərxdə cövlan eylər.

Meyl edər xidmətinə dövləti-tövfiq tapıb
Kim ki, həqdən tələbi-rütbeyi-irfan eylər.

Sən məqam etmədigin mə’bədə abidərdən
Kim ki, mə’vayi-məlayik desə, böhtan eylər.

Salmasa səbhə özün daireyi-məclisinə,
Rişteyi-əqdin üzüb çərx pərişan eylər.

Sənə gər durmasa bir ləhzə müqabil mehrab,
Başını daşə urub çaki-giriban eylər.

Səndən ayrılsa, müsəllayi ayaqlarə salub
Zə’fi-tale qara topraq ilə yeksan eylər.

Hər siyəhdil ki, qomaz baş xətinə xaməsifət,
Qara cahildir əgər də’viyi-irfan eylər.

Gərçi sultanədir islam qiyami mənsub,
Sənə mənsubdur ol sə’y ki, sultan eylər.

Sərvəra, bəndə Füzulini kəmanqəd gərdun
Müttəsil dərdü bəla oxuna qalxan eylər.

Eşidib tə’neyi-dəmsərdləri hər dəm kim,
Şəm’tək şərhi-qəmi-külbeyi-əhzan eylər,

Öylə kim, fəhm edübəm hali-dilin sənsənü bəs
Sən əgər qılmaz isən, ona kim ehsan eylər?

* * *

Nə müşkül olsa qılır çərx ruzigarilə həl
Mürurilə açılır tabi-tari-tuli-əməl.

Könül muradını tədric ilə bulur hasil,
Təhəmmül olsa yetər daməni-mətalibə əl.

Nizami-aləm üçün əskik olmaz əhli-səlah,
Qomaz ümurini aləm muəttəlü müxtəl.

Fərasət əhli kəm olmaz səlahi-millət üçün
Bu nəzm silsiləsi eyləməz qəbuli-xiləl.

Cəhani çərx müdəbbirdən eyləməz xali,
Degil məsalihi-müstə’məli-cahan möhməl.

Nə lütfdür yenə kim, xütteyi-Iraqi-ərəb
Kəmali-mə’rifəti-Kirdikarə oldu məhəl,

Nişani-rövnəqi-Bağdaddır bu kim, qılmış
Zühuri-lütfi-mücəddəd Xudayi-izzə və cəl.

Müsəvvər eylədi nəqşi-sə’adəti-əbədi,
Bisati-büq’eyi-Bağdadə nəqşbəndi-əzəl.

Münəvvər eylədi ədliylə övliya bürcün,
Hümayi-övci-hünər, qütbi-ə’dəlü əkməl.

Müini-şər’i-şərifi-nəbi Məhəmməd bəg
Ki, zikridir səbəbi-zikri-Əhmədi-Mürsəl.

Zəhi büləndməqami ki, payeyi-qədri
Ülüvvi-tarəmi-ə’layi göstərir əsfəl.

Səməndi-qədri əgər salsa mixi-zərrinnə’l,
Olur cəvahiri-əklili-Müştərivü Zühəl

Nə mülkə kim, əsəri-iltifati-salsa şərəf,
Olur xəzanı bahara, qəmi nişata bədəl.

Vücudi-bibədəli afitabdur, əmma
Bir afitab ki, daim mədari ola Həməl.

Büləndqədr şəha, sənsən ol sə’adətmənd
Ki, şə’ni-qədrinədir ayəti-vəfa münzəl.

Təfəhhüs eyləsələr hüsni-afiyət əhlin,
Cəmii-xatirə sənsən xütur edən əvvəl.

Müyəssər olsa təriqi-itaətin xəlqə,
Məmalik içrə olur rəf’ ixtilafi-miləl.

Əhatə qılsa cəmii-ümurə tədbirin,
Hüdudi-mülkdə mərfu olur rüsumi-cədəl.

Müvafiqə şərəfi-tal’ətin mümiddi-həyat,
Müxalifə əsəri-məqdəmin hüzuri-əcəl.

Degil zəmanədə məxfi dəbiri-rə’yindən
Hesabi-dəftəri-daniş, müfəssəlü mücməl.

Həkimi-mə’rifətin sülhə mültəfit olalı
Pozuldu mə’rəkeyi-fitnəvü büsati-hiyəl.

Saraldı şəhdi-kəlamindən əhli-məkr yüzü,
Məzidi-illəti-səfra olur şəfayi-əsəl.

Gedirdi hiddəti-qəhrin fəsad tüğyanın,
Qılır məzərrəti-bəlğəm izaləsin hənzəl.

Şəha, Füziliyi-bidil duayi-dövlətini
Bilibdir əhsəni-ə’mali-xeyrü hüsni-əməl.

Həmişə cahü cəlal ilə müstədam ol kim,
Mədari-əmnü əmansan, nizami-dinü düvəl.

* * *

Nə lütfdür yenə kim, buldu səbzədən gülzar?
Nə feyzdir yenə kim, saldı bağa badi-bahar?

Müzəyyən oldu xəti-səbzə ilə ruyi-zəmin,
Lətafəti-xəti-səbz ilə öylə kim, rüxi-yar.

Hicabi-qeybdə hər feyzi-Həq ki, məxfi idi,
Cəhanə eylədi lütfi-nəsimi gül izhar.

Səfayi-aləm üçün şahidi-inayəti-Həq
Riyazi-dəhrdə ərz eylədi güli-rüxsar.

Səhifeyi-çəmənə yazdı xameyi-səbzə,
Xəti-dəlayili-isbati-Iyzədi-cəbbar.

Məzahiri-əsəri-rəhmət etdi hər tərəfi
Kəmali-qüdrəti-Həq fənzuru üluc-əbsar.

Görünsə xəlq rizasi zəmanədən, nə əcəb,
Zəmanə surəti-iqbalə oldu ayinədar.

Sipehr minnəti altında olsa dəhr nola,
Götürdü ayineyi-dəhrdən sipehr qübar.

Çirağı-bərğ qılıb şəm'i-laləyi rövşən,
Sədayi-rə'd qılıb çeşmi-nərgisi bidar.

Tutuşdu heyrət ilə sineyi-zəvil-əfham,
Açıldı ibrət ilə dideyi-ülul-əbsar.

Dimağı etdi müəttər həvayi-ğaliyəbuy,
Həvayi qıldı müənbər səhabi-gövhərbar.

Zəmirə zövq verib müjdeyi-təvəccöhi-gül,
Cahana saldı səfa məqdəmi-nəsimi-bəhar.

Onun kimi ki, bu iqlimə yümni-məqdəm ilə
Buraxdı zövqü səfa sərvəri-sipehrvüqar.

Güli-hədiqeyi-iqbalü sərvi-bağı-hünər,
Məhi-sipehri-ədəb, şəhriyari-lütf-şiar.

Mühiti-mərkəzi-dövlət Əyas paşa kim,
Mədari-mülkədir iqbali nüqteyi-pərgar.

Sipehrmənziləti kim, buraxsa xakə nəzər,
Qılır xəvas ilə xaki zəri-təmaməyar.

Mühithövsələyi kim, gər etsə qətrəyə meyl
Təvəccöh ilə qılır qətrəyi düri-şəhvar.

Sədaqətində səbati-səadətü iqbal,
Siyasətində səvabi-mühacirü ənsar.

Səlah əhlinə helmilə valiyi-müşfiq,
Fəsad dəf'inə ədlilə hakimi-qəhhar.

Vücüdi-kamilinə padşahi-aləmdən
Sirayət eyləmiş asari-səltənət nə ki var.

Cəhanfüruzi görən ol məhi-təmami bilir
Ki, afitabi-cahantabdəndir ol ənvar.

Əya buludnəzər afitabi-övci-hünər
Ki, rəsmdir sənə hüsni-xəsailü ətvar,

Kəmali-mə'dələti verdi istiqaməti-mülk,
Təbibi-haziqə san kim, irişdi bir bimar.

Münəvvər eylədi iqbalın övliya bürcin,
Livayi-ədlin olub övliyayə şəm'i-məzar.

Rəvacbəxşi-təriqi-Imami-Ə'zəm olub,
Binayi-şər' ilə verdin ümuri-mülkə qərar.

Çiraği-təl'ət ilə Kərbəlayə saldın nur,
Ol asitanədə qıldın düri-niyaz nisar.

Təmamiyi-ümərədən sənə müsəlləmdir
Riayəti-nəsəbü şər'i-Əhmədi-Muxtar.

Yetər bu əcr sənə ol zaman ki, ərz olunur
Cəza üçün Həqə bir-bir səadəti-əbrar.

Xilafi-qeyr nəsib oldu heyni-hökm sənə
Ziyarəti-hərəmi-paki-Heydəri-Kərrar.

Kim, ol xəlifeyi-rabe'dürü münasibdir
Sənə kim, hakimi-rabe'sən ona qürbi-civar.

Şəha, səadəti-iqbalınadır əhli-dua,
Cəmii-əhli-cahan, kəmtərin Füzuliyi-zar.

* * *

Yenə qıldı səba gülzarə də'vət bülbüli-zari,
Yenə qümri məqam etdi fəzayi-səhni-gülzari.

Yenə düşdü həvadən səbzəzarə qətreyi-şəbnəm,
Yenə gülzarə saldı zilli-rəhmət əbri-azari.

Yenə divaneyi-eşq eylədi darüşşəfa meylin,
Yenə gülzarə çıxdı guşeyi-möhnət giriftari.

Yerindən dəprədən mən mübtəlayi şövqi-qalibdir,
Havadır gəzdirən yerdən-yerə səbri-giranbari.

Bu işrətgahın itmamında bir daş olmasa əskik,
Məni yerdən-yerə nəql eyləməzdi dəhr me'mari.

Qədi-xəm birlə təhrikim yerimdən məhzi-hikmətdir,
Qəza surətgəri bihudə gəzdirməz bu pərgari.

Məkan təğyiri sihhət mövcibidir, nola nəql etsə
Təbibi-hikməti-Həq mülkdən mülkə bu bimari.

Mənə mən olduğum mənzildə rahət rəhm edib gəlməz,
Düşüb zəhmətlərə naçar mən oldum tələbkari.

Həvayi-seyr qıldım irtifai-qədr üçün, zira
Yerində hər mətain pəst olur əlbəttə miqdari.

Rəvaci-eşq vermək qəsdinə çıxdım diyarımdan,
Hünər zaye'dir ol kişvərdə kim, yoxdur xəridari.

Məhəbbət qılmağa izhar, qürbət ixtiyar etdim,
Na çarə, yox bu cinsin olduğum yerlərdə bazari.

Mübarəkdir səvadi-dudi-ahim qanda əzm etsəm,
Yaman olmaz səhabın gəzdiyi yerlərdə asari.

Mükərrəmdir sirişkim qanda yer dutsam, bu yüzdən kim,
Baharəngiz olur hər qanda kim, seylab olur cari.

Yenə ey bülbüli-biçarə, əyyami-bəhar oldu,
Irişdi vəqt kim, bəxt ola əhli-dərd qəm xari.

Gülə gül, açıla nərgis lətafət busitanində,
Qopa seylabi-zövq ilə sitəm xaşaki, qəm xari.

Sənə ola müyəssər xəlvəti-vəhdətdə gül vəsli,
Nəsib ola mənə paşayi-gülrüxsar didari.

Zəhi paşayi-mülkarayi-dövlətməndü rövşəndil
Ki, məqbuli-cəmii-xəlqdir məcmui-ətvari.

Süluki-dilkəşi təyyi-təriqi-istiqamətdə
Müxalif dövrdən qılmış peşiman çərxi-qəddari.

Həqiqətdə Ilahin əkbəri-ayati-təqdiri,
Şəriətdə Rəsulin ə'zəmi-ə'vanü ənsari.

Zəmanında zəmanə zülmü yox, insafi var etmiş,
Ona mənsubdur zülm ilə insafın yoxu, vari.

Fərağət xabgahin bəkləyib bimi-həvadisdən,
Olubdur pasibani-mülki millət bəxti-bidari.

Bəhari-gülşəni-dövlət, Əyasi-pakdamən kim,
Vücudi hər xələldən pakdır, hər eybdən ari.

Zəhi şəm'i-şəbistani-səxavü lütf kim, olmuş
Qamu əhbabəvü ə'dayə rövşən nürivü nari.

Şəha, şəfqətşüara, sənsən ol pakizəsiyrət kim,
Sənə hacət degil ehsan üçün dərdi-dil izhari.

Vücudi-bimisalin dövləti-islamə nüsrətdir,
Mücərrəd seyti-rəzmin eyləmiş məğlub küffari.

Fəridi-əsrsən, əmma gəzər hər qəlbdə mehrin,
Günəş birdir, vəli məqsumdur hər yerdə ənvari.

Fələkdir öylə məhkumun ki, xurşidi qılır hazir,
Əgər yarı gecə bəzmində lazim olsa izhari.

Rəvandır öylə fərmanın ki, gər seylabə hökm etsə,
Xilafi-təb'i-əsfəldən olur ə'layə rəfkari.

Əgər qılsan inayət vər ihanət ixtiyar etsən,
Qılır təbdilə qabil lütfü qəhrin murivü mari.

Zamanın cümleyi-övqatını sübh eyləmiş guya,
Çirağilə bulunmaz zülm dövrinin şəbi-tari.

Kəmali-hüsni-əxlaqın bəyan eylər açıldıqca,
Səmən məcmuəsi, nəsrin kitabı, qönçə tumari.

Səfayi-təb'inə mümkün olurdu eyləmək nisbət,
Bəhar ayinəsində olmasaydı səbzə jəngari.

Təsəvvür eyləmək olmaz sənə manənd bir kamil,
Həmana səndə xətm olmuş kəmali-qüdrəti-bari.

Səba vəsfi-rüxün qıldıqda, gül vəsfini söylərkən
Tutuldu qönçə nitqi, bülbülün həsr oldu göftari.

Səbati-ədl üçün rövnəq buraxdın mülki-Bağdadə,
Bəqayi-gənc üçün, ey Xizr, yapdın köhnə divari.

Bü gün Bağdadda bir kimsə yox kim ona rə'fət yox,
Cəmii-mərdümi-Bağdada olmuş rif'ətin sari.

Dutulmuşdu dilim möhnət görüb, hüsni-təkəllümdən,
Gətirdi yadıma zövqi-sifatın şövqi-əş'ari.

Məni əndişeyi-hirman təriqi-küfrə salmışdı,
Ümidi-lütfü ehsanın belimdən açdı zünnari.

Məmalikpərvəra, yox səndən özgə bir müdəbbir kim,
Dəmadəm mətrəhi-lütf edə üşşaqi-diləfgari.

Füzuli bülbüli-gülzari-hüsni-iltifatindir,
Bəhar oldu, yenə göftarə təhrik etdi minqari.

Dilər təfsil ilə hali-dilin şərh eyləyə, əmma
Nə şərh etsin, sənə mə'lumdur məcmu'i-ətvari.

Qalıbdır guşeyi-üzlətdə, sormaz hiç kim halin,
Nə ola bir fəqirin hali kim, olmaya bir yari.

Cəfasın hiç bidil çəkməz ondan qeyri əğyarın,
Onunçün qaliba xəlq eyləmişdir Tanrı əğyari.

Ümidim var kim, rəsmi-müqərrər üzrə olduqca
Müzəyyən şam zülfiylə ərusi-sübh rüxsari,

Sənə mənsub ola xəlvətsərayi-dəhr təzyini,
Səninlə çizginə işrətgəhi-iqbal pərgari.

* * *

Zülməti-heyrətdə zikrindir mənə virdi-zəban,
Tutiyəm guya, yemim şəkkər, yerim Hindustan.

Ixtilati-xəlqdən çəkdim təəllüq damənin,
Qafi-üzlətdə mənə simurğnisbət aşiyan.

Cifeyi-dünyayə çox meyl etməzsəm kərkəs kimi,
Bir hümatəb'əm, qida bəsdir mənə bir üstüxan.

Yüz fəsahət tutiyi-təb'imdə müzmərdir, vəli
Kim dutar ayinə kim, izhar edəm razi-nihan.

Sakinəm bir yerdə kim, yox e'tibarım zərrəcə,
Rövşəni-rə'yi-visali-himmətim xurşidsan.

Qəsri-qədrü rişteyi-dərkim rəfi’ olmaq nə sud?
Çün müsavidir bu qövmə asimanü risiman.

Şahbazi-himmətim hər seydə qılmaz iltifat,
Şəhriyari-rif’ətim hər məsnədi qılmaz məkan.

Aləmi-surətdə gər yoxdur şükuhü şövkətim,
Aləmi-mə’nidə yox bir mən kimi sahibqiran.

Məsnədarayi-səriri-dövləti baqi mənəm
Kim, sözüm zimnində hər iqlimə hökmümdür rəvan.

Dövləti-dünya içün çəkmən səlatin minnətin,
Fəqr sultanı mənəm kim, dövlətimdir cavidan.

Bitərəddüd tutmuşam bəhri-təəllüqdən kənar,
Bitəkəllüf bulmuşam bihudə qovğadən aman.

Sərbüləndü sərkəşəm ərbabi-ücbü kibrə, leyk
Mə’rifət əhlinə gərdi-rahü xaki-asitan.

Bəndəyəm ol mahi-övci-rif’ətü iqbalə kim,
Görməmişdir bir ona manənd dövri-asiman.

Müqtədayi-əhli-daniş hamiyi-ərbabi-fəzl,
Karfərmayi-zəmiri-pakü təb’i-xürdədan.

Nəzmbəxşi-mülk Cə’fər bəg rövşənrə’y kim,
Feyzi-fitridir ona cahü cəlalü izzü şan.

Təb’i-gərdun tui-fərmanına etmiş iftixar,
Rəxşi-dövran rayizi-rə’yinə tapşırmış inan.

Diqqəti-əfkari ol qayətdə kim, fikr eyləsə,
Hikməti-əşyadə dutmaz daməni-elmin güman.

Müdriki-övsafi rə’yi-saibü təb’i-səlim,
Tabe’i-fərmani əqli-pirü bəxti-növcəvan.

Səfvəti-ixlasi ol miqdar kim, qəhr eyləsə,
Xatiri-bədxahə qəhrindən xütur etməz ziyan.

Ey şükufi-rif'ətin pirayeyi-gülzari-dəhr,
Vey nizami-rə'fətin arayişi-mülki-cəhan!

Bimi-qəhrin xanümani-xəsmə bərqi-xanəsuz,
Lütfi-təb'in laləzari-mülkə əbri-dürfəşan.

Sərvəra, sən çeşmeyi-ehsanü bəhri-lütfsən,
Təşneyi-şəhdi-vüsalındır Füzuli natəvan.

Ol zamandan kim, məni əxlaqın etmiş mö'təqid,
Həq bilir, virdim düayi-dövlətindir hər zaman.

Var ümidim ta mədari-ədldir aləmpənah,
Var ümidim ta livayi-fəthdir kişvərsitan,

Olasan iqbalü izzü rif'ətü iclal ilə
Kamigirü kamiyabü kamikarü kamiran.

* * *

Səfheyi-çöhreyi-al üzrə səvadi-xəti-yar,
Dili-pürxünimin ayinəsinə saldı qübar.

Ey üzarü xətinə ənbərü kafur qulam,
Dəmdədəm səfheyi-kafurə xətin ənbərbar.

Xəti-səbz ilə füzun oldu lətafət rüxinə,
Kim görübdür verə ayinəyə rövnəq jəngar?

Səfi-üşşaq hücum etdi məgər kim, hüsnün
Lə'l gəncinəsinə qaliyədən çəkdi həsar.

Min bəla oxuna sancıldı rüxün əksindən,
Olalı sadə könül arizinə ayinədar.

Açdı könlüm çiçəgin zövqi-xəti-rüxsarin,
Dünü gün oldu bərabər, nə əcəb olsa bəhar.

Xət degil zahir olan, ahuyi-Çindir, çeşmin
Hər tərəf cünbüşə gəldikcə qılır mişk nisar.

Ey büti-səngdilü siymtənü mişkinxal,
Vey məhi-sərvqədü səbzxətü laləüzar!

Könlüm aldun ki, bəhasın verəsən nəqdi-vəfa,
Etmədin əhdə vəfa, qövlinə qıldın inkar.

Nə rəva olmaya asari-mürüvvət səndə,
Sən təğafül qılasan, mən olam aşüftəvü zar.

Dutalım kim, sənə sultan, mənə çakər derlər,
Ittisal eylə mənimlə və gər eylərsən ar,

Kərəm et, könlümü ver, qeyr ilə bazar edərəm,
Sən sənə, mən mənə, azar ilə olmaz bazar.

Billah, incitmə məni, yoxsa şikayət qıluram,
Necə mən səbr edəyim, qalmadı canımda qərar.

Lilləhil-həmd degül mülk ühi hakimdən,
Şər’ icrasına Bağdadda bir hakim var.

Vazehi-mə’dələtü rə’fətü insafü ədəb
Sahibi-mərhəmətü şəfqətü təmkinü vüqar.

Ol zəkitəb’ ki, təhqiqi-sifatında onun,
Tələbi-mə’rifət əfgari edibdir əfkar.

Zati gövhər sədəfi-hikmətə, leykin yekta,
Təb’i kövkəb fələki-diqqətə, əmma səyyar.

Dərkinə qismi-bədihidə təsəvvür məhsür,
Elminə hacibi-əsrar vüqui-izhar.

Bəzmi ərbabi-təmənnayə məqami-məqsəd,
Kilki əhli-həqə miftahi-künuzi-əsrar.

Elm-minhacinə ətvari üsuli-tövzih,
Feyz misbahinə asari süluki-ənvar.

Füqəha firqəsinə surəti-fe’li fitva,
Cümlədən cümləyə ol sədri-şəriət muxtar.

Ey vücudin səbəbi təqviyəti-şər’i-şərif,
Bünyeyi-milləti-Zəhrayə sədadin me’mar,

Xidmətin olmasa məqsud nə mümkün ki, verə
Nəzmi-əsnafi-səlasə əsəri-həftü çəhar.

Nöqteyi-dairə gər olmasa zatin, nə əcəb
Olsa nöh daireyi-çərxə məəttəl pərgar.

Xidməti-bəzminə mə’mur məlayik səf-səf,
Zahirən surəti-insanə girib leylü nəhar.

Mahsimalər ilə ərseyi-bəzmin gərdun,
Sərvi-balalər ilə xaki-hərimin gülzar.

Sərvəra, cərri-əməl acilü acil Həqdən
Cənnət olmuş sənə bu mə’niyə şahid asar.

Nola gördükcə səni olsa Füzuli guya,
Sən bir ayinəsən, ol tutiyi-şiringöftar.

Var ümidim necə kim, karigəhi-hikmətdən
Xakü əflakə müqəddər ola məks ilə mədar.

Seyri-əflak ola xak üzrə sənin rə’yinlə,
Kəməri-xidmətini edə dəvayir əqtar.

* * *

Səvadi-büq’eyi-Bağdad çeşmi-həft kişvərdir,
Çirağı-mərdümi nuri-ədalətdən münəvvərdir.

Qamu ətrafına abi-həyati-ədldir cari,
Cəmii-əhlinə tövfiqi-cəmi’iyyət müyəssərdir.

Sürüri müttəsil, zövqi dəmadəm, ne'məti bihəd,
Fəzasi afiyətəfza, həvasi ruhpərvərdir.

Sürür əhlinə zənciri-təəllüq hey'ət əczasi,
Səri-afaqə baruyi-həsari-hisni əfsərdir.

Binayi-büq'eyi-məqbuli əhli-xeyrə mənzilgəh,
Bəsiti-xaki-paki övliyaül-lahə bəstərdir.

Rəvadır övliya bürci deмək ol büq'əyi-pakə
Ki, hər əllaməyə mənzilgəhü hər elmə məzhərdir.

Əfazil büq'ə-buqə'ə xaki-pakin mənzil etmişlər,
Nəzər qıl səfhə-səfhə lövhinə, gör kim, nə dəftərdir.

Səvadi-afəriniş nüsxəsindən bir vərəqdir kim,
Qəvanini-ədalət onda mərqumü mühərrərdir.

Nola Fərhadvəş üşşaqi olsa cümlə xosrovlar,
Mübarək səfhəsində surəti-Şirin müsəvvərdir.

Kitabi-kainatə sərsəri-fitnə güzər qılmış,
Haman bu səhfə qalmış baqi övraqini əbtərdir.

Məkarihdən həzər, iqbalə rəğbət qılmağa daim,
Mələklər hər tərəfdən qasidi, sanman kəbutərdir.

Zülali-mə'dələt sərçeşməsi olsa, əcəb olmaz,
Hərimi-barigahi-rif'əti saqiyyi-kövsərdir.

Bu mülkün şahidi-tövfiqi-iqbali budur hala
Ki, paşayi-səadətmənd əhli-mülkə sərvərdir.

Zəhi sərdari-saibrə'y, sahibədl, dəryadil
Ki, şə'nü şövkəti ə'dayə mənsurü müzəffərdir.

Degil həddi-bəşər hüsni-əfafü lütfi-əf'ali,
Məlayik firqəsindən bir əcəb zati-mütəhhərdir.

Münəzzəhdir qubari-zülmdən mir’ati-idraki,
Təaləllah, nə xoş pakizətəb’ü pakcövhərdir.

Zəmiri-biməlali əsvəbi-əfkarə cövlangəh,
Vücudi-bimisali əhsəni-əf’alə məzhərdir.

Səbati-mülkinə bürhan yetər kefiyyəti-ədli,
Ədalət qanda olsa müstədam olmaq müqərrərdir.

Əmiri-ə’dəlü əkrəm Əyasi-paktiynət kim,
Zülali-ədl birlə tiynəti-paki müxəmmərdir.

Şəha, sən məsnədarayi-səriri-izzü rif’ətsən,
Tərazi-e’tibarin səfheyi-dövranə ziyvərdir.

Cəmali-ənvərindir asimani-mə’dələt mahi
Və ya ol mah kim, xurşidi-rəxşanə bərabərdir.

Pənahi-mülkü millətsən, sədadi-hüsni-tədbirin
Ədu Yə’cucinin dəf’inə bir səddi-Sekəndərdir.

Sənə tabe olan çəkməz məlalü möhnəti-aləm,
Nə qəm zülmət vəhmindən ona kim, Xizr rəhbərdir.

Verir can tiği-xünrizin xəyalilə ədu, guya
Xəyali-tiği-xunrizin əcəl mürğinə şəhpərdir.

Pəyami-şövkətin yetdikcə ə’dayi zəbun eylər,
Əzayimxanə div əlbəttə məhkumü müsəxxərdir.

Sənin tiğindən istər bir cila kəsb eyləyə hala,
Cahan ayinəsi kim, gərdi-möhnətdən mükəddərdir.

Sənin təhriki-rəxşi-iqtidarından umar təskin
Bu günlər dəhr kim, təşvişdən qayətdə müztərdir.

Müxalif zülməti-heyrətdə qalmış, əzmi-cəzm et kim,
Bu zülmət dəf’i möhtaci-şüayi-tiğü xəncərdir.

Cəzayir əhli tüğyan üzrədir, əzm et ki, şəmşirin
Fəsadi-xuni-fasid dəf'inə xunriz neştərdir.

Əzimət qıl ki, dövran müntəzirdir fəth zövqinə,
Rəvan ol kim, zəmanə tabe'ü düşmən mühəqqərdir.

Cəzayir mülkini qıl Bəsrə iqliminə mülhəq kim,
Peyapey fəthü nüsrət ne'məti-qeyri-mükərrərdir.

Sərəfraza, Füzuli qeyrdən qət'i-nəzər qılmış,
Sənin dərgahinə bir sadiqül-ixlas çakərdir.

Yetər lütfün ona daim, degil hacət tələb qılmaq,
Tərəddüdsüz olur hasil nə kim, Həqdən müqəddərdir.

Ümidim var kim, rə'yincə ola seyri dövranın,
Fəzayi-asiman ta cilvəgahi-seyri-əxtərdir.

* * *

Nə mövcud olmasa əsbabi-dünyadən, degil müşkil,
Bu müşkildir ki, mövcud olmaya bir hakimi-adil.

Nə dərdi-dil ki, üz göstərsə dövrandan degil möhnət,
Budur möhnət ki, şərhin qılmağa olmaya əhli-dil.

Mərizin olsa min dərdi, bu dərd onlardan əfsundur
Ki, təşxisinə olmaya təbibi-haziqü kamil.

Bəladır kim, dili-aşiq kimi viran ola kişvər,
Ola ol haldən hakim olan məhbubvəş qafil.

Həvayi-nəfsə tabe ola əhli-mülkdən fariq,
Qılıb üşşaqinin tərkin, rəqibinə ola mail.

Binayi-xaneyi-rəhmət mürur ilən olub viran,
Tilismi-nəzmi-cəm'iyyət ola tədric ilə batil.

Nə xoşdur əhli-aləm rəğbətiçün ola hakimdə
Rüxi-rəxşan, ləbi-xəndan, dili-dana, kəfi-bazil.

Müdavayi-qülubi-münqəbiz bir dərddir mühlik,
Mülaqati-müluki-tündxu bir zəhrdir qatil.

Nə ümmid ilə surət bağlasın izharə şərhi-qəm,
Cəvabi-təlxdən yeyrək bilir hirmanını sail.

Nişani-hüsni-tale' bu yetər Bağdadə kim, hərgiz
Ona rahət mülaqatında yox bir mane'ü hail.

Bihəmdillah səlahi-dövlət içün məsnədi-rif'ət,
Bu gün bir qütbi-sahibədlü saibrə'yədir mənzil.

Sipehri-dövlətü iqbal, mülkarayi-Cə'fər bəg
Ki, yeksandır onun ədlinə hökmi-alivü safil.

Zəhi adil ki, dövranında dehqan tirə torpağə
Buraxsa daneyi-cov, xuşeyi-pərvin qılır hasil.

Fələk tə'siri-iqbalından istər qüvvəti-tale'
Kim, olmuş bəhr məhsulinə, kan ədrarına amil.

Ümuri-xeyri ehsan buldu əyyamında min rövnəq,
Ədalət mültəzəmdir ol ümurə, mərhəmət kafil.

Hesabi-mücməli-övsafidir bir pak dəftər kim,
Cahanın xeyri-məhsulu onun cəm'inədir daxil.

Zəmanında zəman əhlinə hərgiz çəkməmiş katib,
Hesab olduqda qeyri-izzü rif'ət baqivü fazil.

Sərəfraza, nəvali-ne'mətü idrari-ehsanın,
Cəmi'i-mülkədir cari, cəmi'i-xəlqədir şamil.

Təvəccöh qıl, məlalət çəkmə, ikrah etmə kim, Həqdən
Bir ayətdir nizami-mülkü millət şə'ninə nazil.

Əgər hökm etsə hüsni-tale’in, baran olub lö’lö,
Sənə minnətsiz eylər əbrü dərya hasilin vasil.

Sənə nisbət bu rütbə rütbeyi-məzmumdur, əmma
Nə çarə, ziynəti-əyyamə sənsən cövhəri-qabil.

Ədalət səndə bulmuşdur, sənə möhtacdır kişvər,
Gühər ümmidi birlə daməni-dərya dutar sahil.

Şəha, gər olmasaydı lütfü idrakın təqazası,
Füzulinin qalırdı karigahi-sən’əti batil.

Sənayi-izzü iqbalın dilər əlbəttə bir madeh,
Zühuri-lütfü ehsanın dilər əlbəttə bir sail.

Ümidim var kim, ta nurü zülmət ola aləmdə,
Cahandan sayeyi-cahü cəlalın olmaya zail.

* * *

Səbr hər dərdə mürur ilə müdava eylər,
Sahibi-səbr bulur hər nə təmənna eylər.

Dövrdən dəhrdə hər məqsədə bir möv’id var,
Vəqtsiz gərçi ona təb’ təqaza eylər.

Yetmədən vəqt, muradını təqaza qılmaz,
Hər mühəqqiq ki, xəbirəm deyü də’va eylər.

Rəsmi-dövrani-fələkdir bu kim, əhli-tələbi
Neçə gün heyrəti-hirman ilə iyza eylər.

Surəti-şahidi-iqbali qəbul etmək üçün,
Qaliba ayineyi-təb’i mücəlla eylər.

Talibin dövri-sipehr ilə müxalif rəvişi
Üqdələr rişteyi-əhvalına peyda eylər.

Zaye olmaz, irişir məqsədinə, səbr qılıb
Kim ki, dəhr ilə mədarində müdara eylər.

Dövr bihudə degil, hər nə müqəddər olsa,
Ona tədric ilə əsbab mühəyya eylər.

Hiç məxluqdə yox qüdrəti-iycadi-ümur,
Hər nə eylər əsəri-qüdrəti-mövla eylər.

Qılmasa lütfi-həqü dövləti-tövfiq mədəd,
Zəhri zənbur qaçan şəhdi-müsəffa eylər.

Mən kimi zarə nə nisbət şərəfi-neyli-murad,
Lütfi-həqdir ki, məni məqsədə ehda eylər.

Ey könül, kəsmə tələb badiyəsindən qədəmin
Ki, tələb rütbeyi-iqbali müəlla eylər.

Leyk hal əhlinə izhar edə gör dərdi-dərun,
Xəstə əhvalını mə’lum ətibba eylər.

Əkməli-xəlqdən istə şərəfü rif’ət kim,
Qürbi-ədna həvəsi, rütbeyi-ədna eylər.

Gərçi surətdə şəriki-bəşəriyyət çox olur,
Dərki-əsrari-həqiqət dili-dana eylər.

Az olur qabili-idraki-rümuzi-mə’qul,
Sanma hər xaki qəza alimi-əsma eylər.

Müstəiddi-şərəfi-rif’ət olan nadir olur,
Sanma hər abi həva lö’löi-lala eylər.

Çox olur gərçi məadində cəvahir sinfi,
Padişəh ziyvəri-əfsər, düri-yekta eylər.

Saidi-ədldədir qüvvəti-icadi-nizam,
Ərzi-icazi-nübüvvət yədi-beyza eylər.

Pənceyi-əzmdədir qüdrəti-islahi-fəsad,
Sehr dəf'in mədədi-mö'cizi-Musa eylər.

Nəzmi-dünya səbəbi-səltənəti-üqbadır,
Ə'dəli-xəlqini Həq nazimi-dünya eylər.

Artırıb surəti-halinə kəmali-mə'ni,
Surəti mə'ni ilə cümlədən ə'la eylər.

Mücməla həzrəti-paşayi-fələkqədr kimi,
Aləməfruz qılır, məmləkəttara eylər.

Ol zəki-təb' ki, divani-xilafət hökmün
Rüb'i-məskunə onun diqqəti icra eylər.

Ol səxapişə ki, bir dəmdə qılır sərfi-gəda,
Hər nə yüz ildə əyan mə'dənü dərya eylər.

Sayeyi-rə'yəti-iqbali yetən yerlərdə,
Ruzigarini ədunin şəbi-yelda eylər.

Ərseyi-rəzmdə hər dəm ki, qılıb meyli-qəza,
Cümləsin üqdəgüşayi-səfi-hica eylər.

Dağıdır tiğ ilə tərkibi-ədu əczasın,
Leyk hər cüz'i onun layətəcəzza eylər.

Şəbi-hicadə ki, səyyareyi-peykani ilə,
Səri-xəsmini qəza övci-Sürəyya eylər.

Zəxmi-təndən açuban ruhi-müxalif rövzən,
Çıxub ol övci-Sürəyyayə təmaşa eylər.

Mədədi-rə'yi zəmiriylə gəlür fe'lə müdam,
Lövhi-qüdrətdə qəza hər nə ki, inşa eylər.

Ləfzi-pakindən edər hüsni-ibarət kəsbin,
Fələk əhkami-qədərdən nə ki, imla eylər.

Aləmi eyləsə bir zati-müşəxxəs təqdir
Xaki-payini onun dideyi-bina eylər.

Şöhrəti-ismi yetər şahidi-hüsni-əməli,
Əhli-Həq ismdən idraki-müsəmma eylər.

Ey ki, əhli-nəzərə nasiyeyi-iqbalin
Səltənət nurini hər ləhzə hüveyda eylər.

Səndə mövdu'dur əsrari-xilafət gənci,
Əhli-idraki süvar vaqifi-mə'na eylər.

Mümkün olmaz ki, ola nəzmi-cəhan rə'yinsiz,
Surəti-kövn qaçan tərki-həyula eylər.

Rövzeyi-xaki-dərin bağı-güli-cənnətdir,
Kim ki, cənnət dilər, ol rövzədə mə'va eylər.

Müttəsil gərçi niyaz ilə dutub damanın,
Tiğ səndən tələbi-kəsrəti-ə'da eylər.

Cilvəgahi-əməlin məsnədi-əmniyyətdir,
Əsəri-rif'ətin ə'dayi əhibba eylər.

Mari təhdidi-əzabi-qəzəbin mur qılır,
Pəşşəyi tərbiyətin izzilə ənqa eylər.

Övliya bürcünə yetdi qədəmin, şək yox kim,
Xaki-pakindəki əmvatini əhya eylər.

Ey xoş ol məqbərə kim, bulmağa əmvati həyat,
Onu tövfiq güzərgahi-Məsiha eylər.

Sərvəra, samit ikən ləzzəti-mədhin zövqi
Tutiyi-nitqi-Füzulini şəkərxa eylər.

Eylə kim, fəsli-xəzan bülbüli lal etmiş ikən,
Şövqi-nəzzareyi-gül zövq ilə guya eylər.

Cani-məhcurinə rahət yetirər didarin
Çəməni səbzi-bəhari fərəhəfza eylər.

Ziyb mədhindən alur ləhceyi-nahəmvarim,
Xari mərğub cəmali-güli-rə'na eylər.

Gərçi saxlardı nihan nəzmimi bəxti-siyəhim,
Sənə yetdikcə nə kim var isə ifşa eylər.

Dutalım sətrdir əyanə, hicabi-zülmət,
Xizrdən abi-həyati necə ixfa eylər.

Davəra, böylə zamanlardakı ədlin əsəri
Çareyi-dəf'i-qəmi-hər dili şeyda eylər.

Əhli-irfanə kəmali-kərəmin hər saət
Lütflər zahir edib, meyli-mühaba eylər.

Nə rəvadır bu ki, peyvəstə sipahi-qəmü dərd
Könlümün mülkini bivasitə yəğma eylər.

Mən nihan xaneyi-üzlətdə ikən fəqr mənim
Kəşfi-əsrarim edib aləmə risva eylər.

Hər zaman xəlq mənə qılmağa itlaqi-cünun,
Məni ənduh sərasimeyi-sevda eylər.

Bu bəladən kimə izhari-şikayət qılayım,
Hər kimə zülm keçibdir, sənə şəkva eylər.

Vaqifi-sirri-süxən kimsənə yox səndən qeyr,
Sən əgər eyləməsən, kim mənə pərva eylər?

Var ümidim necə kim, mübdii-asari-vücud
Sərfi-təqdir qılıb xilqəti-əşya eylər,

Ola baqi əsəri-mə'dələtin kim, daim
Əsəri-zülmdən afaqi-mübərra eylər.

* * *

Ey sənə iqbali-ruzəfzun ətayi-kirdigar,
Müttəsil tə’ziminə mə’mur dövri-ruzigar.

Afitabi-asimani-ədlsən, olmaz əcəb,
Qılsa iqbalın təqazayi-ülüvvi-iqtidar.

Qürbi-dərgahi-xilafət şövqi cazibdir sana,
Eylər isən nola təğyiri-məkan biixtiyar.

Ədl bir məqbul taətdir ki, qalmaz əcrsiz,
Adilin əlbəttə qədrin artırır Rərvərdigar.

Gərçi təhrikin sənin hikmət təqazasiylədir,
Qanda əzm etsən olur səndən münəvvər ol diyar.

Pərtövi-iqbal ilə şəm’i-cahanəfruzsən,
Zövqi-didarindədir xasiyyəti-feyzi-bəhar.

Qanğı xari-xüşkə lütfün yetsə, eylər barvər,
Qanğı səhrayə güzar etsən qılırsan laləzar.

Əbri-nisansan, degil bihudə təhrikin sənin,
Bər gül eylər kəsb səndən, bəhr dürri-şahivar.

Qanda olsan, olduğun kişvərdə olmaz inqilab,
Qanğı qəm əhlinə kim, yetsən, olursan qəmküsar.

Leyk səndən ayrılan xəlqin işi düşvardır,
Bir şəbistanın çirağın alsalar olmazmı tar?

Tirə olmazmı cəhan pünhan olcaq afitab,
Gedicək gül dövri bağın gülbüni olmazmı xar?

Xəstə kəsməzmi həyatından təmə’, getsə təbib,
Getsə can, olmazmı cismi-dərdpərvər xakisar?

Ey fələk, billah, nədir mövcib ki, bu mülk əhlinə
Cövri-bihəd etdinü bidadi qıldın bişümar!

Nişə qıldın afiyət mülkini viran zülm ilə,
Nişə saldın zövq mir'atına möhnətdən qübar?

Sən bilirsən kim, bu mülk əhlinə olmuşdur şəfiq
Həzrəti-paşayi-sahibrif'ətü gərdunvüqar.

Ol salıbdır bunda asari-kərəm avazəsin,
Ol qılıbdır bunda cəm'iyyət əsasın üstüvar.

Nişə aldın başımızdan sayeyi-iqbalini,
Nişə etdin əhli-idrakə bu zülmü aşikar?

Etmədinmi vəhm ondan kim, qılam bir ah ilə
Həft taqü nöh rəvaqin rəxtü bəxtin tarümar?

Üzr ilə gərdun dönüb verdi cəvabım, k'ey fəqir,
Bitəkəllüf olmuşam mən həm bu işdən şərmsar,

Leyk mə'lum eylə kim, bu macəra məndən degil,
Sən qılırdın iltimasın bu işin leylü nəhar.

Eyləyib əczü niyazilə duayi-biriya,
Ol sərəfrazə sən istərdün ülüvvi-e'tibar.

Lacərəm olmaz təzaüf məsnədi təğyirsiz,
Yetməyincə mənzilə bulmaz tələb əhli qərar.

Necə qılsın arizuyi-ixtilatın əhli-qürb,
Necə çəksin əhli-rif'ət məqdəminə intizar.

Nola gər xurşidvəş dur olsa ol sahibnəzər,
Gər iraqdır, gər yaqın, ehsanına ümmid var.

Qanda olsa görməsin tabi-həvadisdən zərər,
Zati-pakin saxlasın hər fitnədən Pərvərdigar.

Ey ki, hicranın dili-əfkarə salmış iztirab,
Firqətin tə’siri etmiş canı məhzun, cismi zar,

Istərəm daim görəm didarin, əmma neyləyim,
Ixtiyarım yox, mənim rə’yimcə çərx etməz mədar.

Var ümidim, qanda olsa dövlətü iqbal ilə,
Ola bəxtin kamiyabü kamiranü kamikar.

Ola vasil qanda olsan dövlətü iqbalına
Hər dua kim, sidqilə eylər Füzuli xakisar.

* * *

Fələk hər dövrdə bir feyzi-hikmət aşikar eylər,
Təqalibi-zaman izhari-sün’i-Kirdigar eylər.

Qəradən ağı fərq etməz bu rəmzin bilməyən dəhrin
Ki, niçün gəh nəhari leylü gəh leyli nəhar eylər.

Bəyaz üzrə səvadi-nüsxə kim əsrari-hikmətdir,
Xirəd hər hərfini mənzuri-eyni-e’tibar eylər.

Əsiri-dərd olanlar ruzigarın inqilabından,
Əgər sən həm tərəhhüm qılmasan tərki-diyar eylər.

Fələk dövranının əhvalinə vaqif olan arif,
Təriqi-səbrü təslimü təvəkkül ixtiyar eylər.

Müqarin olsa asari-səadət tirə toprağə,
Nəsimi-növbahar ol tirə toprağə güzar eylər.

Mücəlla eyləyib ayineyi-təb’in küdurətdən,
Qılıb xürrəm, verib lütfi-təbiət laləzar eylər.

Verir hər xəstəyə əlbəttə dövrani-fələk dərman,
Vəli bir qaç zaman bimari-dərdi intixar eylər.

Qılır hər namuradi aqibət məqsudinə vasil,
Vəli bir neçə müddət zilli-hirman ilə zar eylər.

Zəmanə hər diyarə istəsə asari-əmniyyət,
Ona sahibliva, bir sərvəri-rif'ətşüar eylər.

Qəza hər kişvərin əhlinə cəm'iyyət murad etsə,
Ona əlbəttə bir danayi-kamil şəhriyar eylər.

Bihəmdillah bu gün bu mülkə salmış sayə bir adil
Kim, onun nisbətilə izzü rif'ət iftixar eylər.

Sərəfrazi ki, feyzi-xakbusi-asitanından
Enib hər dəm günəş kəsbi-ülüvvi-iqtidar eylər.

Səfayi-zikri-xaki-payidir ol seyqəli-rəhmət
Ki, mir'ati-dili-əhbabdən rəf'i-qübar eylər.

Fələk məşşatəsi verdikdə ziybi-şahidi-dövlət,
Onun mahi-livayi-rif'ətin ayinədar eylər.

Zəmanə inqilabından fərağət istəyən arif,
Onun mə'mureyi-iqbalına hisni-həsar eylər.

Səmiyyi-Əhmədi-Mürsəl Məhəmməd bəy, o dəryadil
Ki, mir'ati-dili-əhbabdən rəf'i-qübar eylər.

Əya sərdari-rövşənrə'y mülkaray, fərruxrüx
Ki, hər mənsəbdə ismin iqtizayi-iştihar eylər.

Kəmali-mə'rifət hər xandavü hər dövrdə olsa,
Səni sərdəftəri-ərbabi-təmkinü vüqar eylər.

Bu mülkə sayeyi-dövlət buraxmışsan bihəmdillah,
Yeridir gər sənə mülk əhli can nəqdin nisar eylər.

Neçin kim zati-pakin məzhəri-feyzi-ədalətdir,
Bu mülkün hər günün novruzü hər fəslin bahar eylər.

Məşahid rövnəqinə əzm qılmışsan, zəhi himmət,
Bu himmətlə səni Xəllaqi-aləm kamikar eylər.

Şəhidi-Kərbəlayə su yetirmək qəsdin etmişsən,
Səni əlbəttə aləmdə bu niyyət payidar eylər.

Sərəfraza, Füzuli xəstəyə bu mülki-qürbətdə,
Sipehri-namüvafiq dövri cövri-bişümar eylər.

Əgərçi biqərar etmişdir ol biçarəyi möhnət,
Bulub təmkin sənin zövqi-vüsalinlə qərar eylər.

Cəmii-xəlqdən qət’ eyləmiş sərriştеyi-ülfət,
Əgər sən həm tərəhhüm qılmasan tərki-diyar eylər.

Sən ol pakizətəl’ət, afitabi-aləmarasan
Ki, lütfün könlümü yüz məqsədə ümmidvar eylər.

Verir mədhi-şərifin cövhəri-göftarinə rövnəq,
Sədəfdir qətreyi-barani dürri-şahivar eylər.

Qılır şəm’i-cəmalın nuri təb’i-tirəmi rövşən,
Günəşdir səngi-bimiqdarı lə’li-abidar eylər.

Ümidim var kim, var olasan aləmdə qədr ilə,
Qəza hər necə kim yoxdan cahan əhlini var eylər.

* * *

Cahanı eylədi feyzi-bəhar rəşki-cinan,
Buraxdı fərşi-lətafət zəminə lütfi-zəman.

Həva sünufi-rəyahinə verdi ziybi-zühur,
Tərazi-Hilleyi xak oldu hülyeyi-əlvan.

Diküb şükufəvü qönçə çəməndə çətrü otaq,
Məqami-bəzmi-sürur oldu ərseyi-bustan.

Degil əlaməti-fəsli-rəbi’ qövsi-qüzeh,
Ədayi-xidmət içün bağladı sipehr miyan.

Mükəmməl olmağa əsbabi-eyş bitənqiz,
Müyəssər olmağa alati-bəzm binöqsan,

Səhabü seyl ilə irsal oldundu gülzarə
Qamu zəxireyi-bəhrü qamu dəfineyi-kan.

Təmamiyi-bərəkatın zəmin qılıb məbzul,
Cəmi’i-lütfi-nihanın zəmanə qıldı əyan.

Büsati-səbzəyə gülbün yaşıl sərir tiküb,
Yaxıb çiraqlərin hər tərəf güli-xəndan,

Yığıldı nəstərənü susənü gülü lalə,
Dərildi nərgisü nəsrinü sünbülü reyhan.

Nəfiri-seylə həmavaz olub nəqareyi-rə’d,
Qılub misari-müqərrər cəvahirin baran,

Çəməndə eylədilər tifli-qönçəyi sünnət,
Saçıldı gülşənə gül-gül cərahətindən qan.

Yetirdi öylə səfa dövri-ruzigarə bu sur
Ki, suri-xütneyi-nəqdi-yeganeyi-dövran,

Güli-bəhari-əmarət, cənabi-Cə’fər bəg
Ki, tövqi-rə’yinədir çərx bəndeyi-fərman.

Nizami-səltənətü mülkə əşrəfi-əsbab,
Binayi-millətü islamə ə’zəmi-ərkan.

Bəhari-rif’ətü iqbalə əltəfi-əzhar,
Nihali-şövkətü iclalə ə’dəli-əqsan.

Sipehrmənziləta, sənsən ol məkani-həya
Ki, yox sifatinə həddi-əhateyi-imkan.

Mübarək ola bu surü sürurі-bəzmi-huzur
Kim, oldu cümleyi-xəlqi-cəhanə feyzrəsan.

Nişatü eyşinin övsafi tutdu afaqi,
Səfafü zövqünün avazəsiylə doldu cəhan.

Sipehr qıldı bu bəzmi-nişatə bəzli-səfa,
Məlaik oldu bu surü sürurə fatihəxan

Ki, əsli qaideyi-hifzi-şər'dir bu əməl,
Budur müqəddəmi-əsnafi-taəti-Rəhman.

Şəha, Füzuliyi-zarəm ki, dövri-ədlində
Büqai-əmnü əmandır mənə məqamü məkan.

Nisari-bəzmin içün gər bulursa hüsni-qəbul,
Gətirmişəm göhəri-e'tiqadü cövhəri-can.

Ümid var ki, olduqca ruzigarə vücud,
Müyəssər ola sənə irtifai-şövkətü şan.

* * *

Ey hilali-eyd, qalibdir sənə əbruyi-yar,
Hüsni-surət səndə bir var isə, onda iki var.

Yar əbrusinə bənzətməm səni, ey mahi-növ,
Sən günəş birlə görünməzsən, sənə nə e'tibar.

Qaşlarındandır xəcil guya hilali-eyd kim,
Gecə əskik görünür, gündüz çox olmaz aşikar.

Cilvə eylər mahi-növ el qarşısında şami-eyd,
Sən girib ortaya qaşın göstər, ol dutsun kənar.

Natəvan gördüm hilali-eydi dün yarım kimi,
Ol dəxi guya ki, zə'fi-ruzədən olmuş nizar.

Yeni ayi qaşların sövdası rüsva eyləmiş,
Göstərirlər bir-birinə onu əhli-ruzigar.

Mahi-növdir bilməzəm taban şəfəqdən, yoxsa kim,
Qana batmış növki-şəmşiri-əmiri-namidar.

Ol sərəfrazi-fələkrif'ət ki, rə'yi-rövşəni
Eyləmişdir rəf' mir'ati-həqayiqdən qübar.

Cövhəri-pakizeyi-zati-şərifi-kamili
Aləmə lütfü mürüvvət mə'dənindən yadigar.

Şəfqətü qəhr ilədir bir sayəgüstər nəxl kim,
Takdir əsli, verir həm qürə, həm əngur bar.

Qəhri ol rəngilə kim dərya mizacin xüşk edər,
Çalsa gər Musasifət dəryayə tiği-abidar.

Şəfqəti ol rəsmə kim, ataş təbiətdən çıxar,
Salsa Ibrahimvəş od üzrə lütf ilə güzar.

Həm təriqi-mə'dələt rə'yindən onun müstəqim,
Həm əsasi-afiyət ədlindən onun üstüvar.

Ey səfayi-məşrəbin mülki-əzəltək bikəran,
Vey bihari-himmətin bəhri-əbədtək bikənar.

Gər sən olsaydın əmiri-şövkəti-Iskəndəri,
Vadiyi-hikmətdə bulmazdı Ərəstu iştihar.

Vər sən etsəydin qəbuli-minnəti-Nuşirəvan.
Eyləməzdi hiç kim Büzürcmehrə e'tibar.

Məhzi-şər' olmuş əfakəllah vücudi-kamilin
Feyzi-təsvirü hədisü fiqhdən leylü nəhar.

Səfheyi-mehri-rüxündür mövdiyi-muri-nəbi,
Çar təb'i-kamilin mə'vayi-mehri-çariyar.

* * *

Mən kiməm? – Bir fəqiri-bisərü pa,
Kəmtərin bəndəvü kəminə gəda.

Sayiri-kargahi-səbrü sükun,
Saliki-şahrahi-fəqrü fəna.

Nə mizacimdə irtikabi-qürur,
Nə fəalimdə ehtimali-riya.

Künci-üzlətdə fəqrü faqə ilə
Olmuşam öylə məhv kim, məsəla:

Mərkəzi-xaki etsə zirü zəbər,
Bulamaz gərdimi nəsimi-səba.

Əzl qılmış məni əməllərdən
Amili-karxaneyi-dünya.

Qılmazam karü bari-aləmə meyl,
Çəkməzəm əzlü nəsb üçün qovğa.

Mənə vermiş cahan qamu fəqrin,
Nola ursam cahana istiğna.

Aləmi-üzlətin yeganəsiyəm,
Qafdən-Qafə yox mənə həmta.

Surətim fəqrü siyrətim mün’im,
Hey’ətim murü himmətim ənqa.

Rif’əti-qədrim iltifat etməz,
Gər Süleyman qılırsa ərz əta.

Faniyi-mütləqəm, qəbul etmən
Minnəti-Xizr ilə zülali-bəqa.

Deməzəm vəhşiyəm, təbiət ilə
Talibi-zövqi-söhbətəm, əmma

Bir diyar içrəyəm ki, xəlqindən
Eyləməz hiç kim mənə pərva.

Kimsə yox dərdim eyləyim izhar,
Eyləyim ondan iltimasi-dəva.

Lə'lvəş daş içindədir vətənim,
Gül kimi, xarı qılmışam mə'va.

Dün bu hal ilə məhvi-heyrət ikən,
Gəldi bir qasidü gətirdi mana

Bir əcəb nameyi-fərəhtə'sir,
Məhz hüsni-ibarətü imla.

Zahiri dilpəzirü feyzrəsan,
Batini feyzbəxşü ruhəfza.

Nəqşi-xəttində əltəfi-surət,
Tərzi-ləfzində əşrəfi-mə'na.

Cilvəgahi-nəzərdə hər ləfzi,
Bir əripeykərü mələksima.

Işvəvü şivəvü kirişmə ilə
Dil edər seydü əql edər yəğma.

Fəhm qıldıqda hüsni-məzmunun,
Qıldım onda sürurlər peyda.

Bəndəyi lütf birlə yad etmiş
Həzrəti-seyyidi-xücəstəliqa.

Ol fələkqədr kim, ona vermiş
Hikməti-Həq kəmali-sidqü səfa.

Zati-paki cəmii-aləmdən
Şərəfi-rütbə ilə müstəsna.

Feyzi-elmi ifadeyi-bəşəri,
Ona ərvahi-qüdsdən ilqa.

Əslidir nuri-paki-müstəfəvi,
Hökmüdür rövnəqi-səriri-qəza.

Elmidir baisi-rəfahəti-xəlq,
Fe'lidir mövcibi-rizayi-Xuda.

Az olur bir arada cəm olmaq
Hökmü elmü səyadətü təqva.

Mir Seyyid Məhəmmədi qazi,
Mənbəi-elmü helmü cudü səxa.

عظّم الله قدره العالی
رفع الله شانه الاعلا
زید الله عزّ و رفعته
نفذ الله حکمه ابدا

Ey qəzahökm kim, müyəssərdir
Zatinə iqtidari-izzü əla.

Güli-gülzari-itrəti-nəbəvi,
Çəmənarayi-milləti-Zəhra.

Nuri-çeşmi-təmamiyi-sadat,
Müqtədayi-cəmii-əhli-zəka.

Mənə təqsir hökmün etmişsən,
Demək olmaz bu hökmə hökmi-xəta.

Leyk bir bəndeyi-həqirəm mən,
Əməlim əhli-xeyrə xeyr-dua.

Sahibi-üsrətəm, mənə nə düşər
Kim, olam həmnişini-əhli-ğina?

Məhzi-cəhləm, mənə nə nisbətdir
Ki, qılam meyl söhbəti-füzəla?

Gərçi əflakə rəğbət eylər xak,
Yetməz ə'layə rütbeyi-ədna.

Lütf səndən mənə münasib ikən,
Məndən olmaq mütaləbət nə rəva?

Ey Füzuli, bu növ, də'vadə,
Məsləhətdir dutam təriqi-riza.

Hal müşküldür onda kim, bir ola,
Sahibi-hökmü sahibi-də'va.

Var ümidim ki, ta müəssirlə,
Sabitü sayir ola ərzü səma,

Ola hökmi-qəza ilə baqi
Qaziyi-ğaziyi-xücəstəliqa.

* * *

Qıldı dəf'i-qəm dili-üşşaqdən zövqi-bahar,
Ah kim, göstərdi eşq əhlinə dövran hicri-yar.

Sakini-xümxanə peyda qıldı şövqi-seyri-bağ,
Gəldi ol dəm kim, qıla biçarələr tərki-diyar.

Saldı göz girdabına nəzzarəyi-gül mövci-xun,
Qıldı dil ayinəsin pürjəng əksi-səbzəzar.

Qönçətək çak oldu ceybi-sirri-ərbabi-ifaf,
Aldı meyli-seyri-gülzar əhli-təmkindən vüqar.

Dutdu cami-laləgun ərbabi-işrət gül görüb,
Qan içirdi xəlqə neyrəng ilə çərxi-hiyləkar.

Dustlər, əyyami-gül olsaydı həngami-sürur,
Rə’di-nalan dəmbədəm qılmazdı əbri-əşkbar.

Fəsli-gül təb’ində əmniyyətdən olsaydı əsər,
Qərqi-xuni-laləzar olmazdı tiği-kuhisar.

Sineyi-səhrayə tiği-seyldən düşməzdi çak,
Növərusi-qönçənin damanını dutmazdı xar.

Jalə daşından göyərməzdi təni gülbünlərin,
Gülşəni zəncirə qılmazdı müqəyyəd cuyibar.

Bu əlamətlərdən agah olmayandır bixəbər,
Bixəbərdir ol ki, eyş eylər bu mövsim ixtiyar.

Nola gər heyrət qılıb susən zəbanı olsa lal,
Nola gər həsrət çəkib ağlarsa bülbül zar-zar,

Ey dili-qafil, degil bihudə təşrifi-rəbi’,
Ondadır müzmər kəmali-qüdrəti-Pərvərdigar.

Qaliba təqdirdən sükkani-xəlvətgahi-xak,
Rüxsət almışlar kim, edib sirri-hikmət aşikar,

Cümleyi-əzhar xəlvətdə geyib rəngin libas,
Eyləyib hər ildə bu dünyayə bir növbət güzar,

Edələr qafillərə təkmili-əsbabi-qürur,
Olalar ariflərə mənzuri-eyni-e’tibar.

Tutalar bir dəm qərar, amma yenə dilgir olub,
Edələr sərmənzili-mə’hudə dünyadən fərar.

Dari-dünya öylə sərmənzil degildir kim, ola
Nazəninlər təb’inə abü həvasi sazikar.

Təngnayi-aləmi-fani degildir ol məqam
Kim, ola bünyadı müstəhkəm, əsası üstüvar.

Ey qəza, gər arizuməndi-səbati-dəhr isən,
Əmrin et təslimi-xüddami-əmiri-namdar.

Ol fələkrif'ət ki, rə'yindəndir istehkami-mülk,
Ol mələksiyrət kim, ondandır rəvaci-ruzigar.

Çeşmi-lütfündən etmiş bəhr təhsili-səxa,
Naibi-qüdrətdən almış çərx rəf'i-iqtidar.

Dövr tövri-dilgüşa kilkindən etmiş iktisab,
Çərx qədri-mürtəfe' bəxtindən etmiş müstəar.

Nəqşi-lövhi-e'tibari sərhədi-əhkami-ədl,
Surəti-əhkami sirri-hikmətə ayinədar.

Karisazi-mülk Cə'fər bəg, o rövşənrə'y kim,
Nüsxeyi-hökmünədir məzmun rizayi-Kirdigar.

Əhli-hökmə ta əbəd əf'ali dəsturül-əməl,
Nəzmi-mülkə vəz'i-qanuni əsasi-payidar.

Ey əzəldən məsnədi-rif'ətdə zati-kamilin
Kambəxşü kamiranü kambinü kamikar.

Növbəhari-zövqi-vəslindən cüda gülzari-mülk
Xarizari-dərddir, zindani-zillü inkisar.

Həq bilür kim, gülşəni-vəslindən ayrı mürği-dil
Payibəndi-rişteyi-təşvişdir leylü nəhar.

Olmazam bir ləhzə birə'di-fəğanü bərqi-ah,
Qanda kim, seyr eyləsəm giryanü suzan əbrvar.

Aqibət gülzari-şövqündə nihali-möhnətim
Abi-çeşmü daği-dildən qıldı zahir bərgü bar.

Müjdeyi-təşrifi-vəslin gəldi çox, əmma nə sud,
Suzi-hicrani ziyad eylərdi daği-intizar.

Sərvəra, gülbərgi-rüxsari-lətifin görməgə
Müntəzirdir zarü sərgərdan Füzulitək həzar.

Necə müştaq olmasınlar dövləti-didarına,
Müğtənəmdir bitəkəllüf hakimi-rif'ətşiar.

Var ümidim kim, bəhar olduqca bəzmarayi-mülk,
Görməyə ayineyi-təb'in həvadisdən qubar.

* * *

Sün'i-Həq kim, yox ikən aləmi etmiş peyda,
Ondan almış əsəri-nəzm nizamın əşya.

İqtizayi-nəsəqi-mülkü nizami-millət,
Xasü amin kimin ədna, kimin etmiş ə'la.

Ta zərər yetməyə ədnalərə ə'lalərdən,
Eyləmiş aləmə fərmani-xilafət icra.

Ənbiya birlə səlatini müfəvvəz qılmış,
Olmağa niyyəti-ədl ilə məmalikara.

Hökmdür hökm ki, dünyayə verər ziybi-nizam,
Hökmdür hökm ki, din rəsmini eylər əhya.

Hökm gər olmasa dünyayə salır zülm fəsad,
Hökm gər olmasa bulmaz nəsəqi-mülk bəqa.

Hakim oldur ki, müvafiq ola hökmünə qədər,
Hakim oldur ki, mütabiq ola əmrinə qəza.

Hakim oldur ki, onun olmaya zatında təmə',
Hakim oldur ki, onun olmaya fe'lində riya.

Şəm’dən görsə ki, pərvanəyə bir zülm yetər,
Kəsə başın, deməyə zaye’ olur nəf’i-ziya.

Bulmayan dövləti-tövfiqü inayət Həqdən,
Nə rəva kim, qıla icrayi-hökumət də’va.

Rəvişi-ədlidədir mərtəbeyi-qürbü qəbul,
Ədlsiz hakimə də’vayi-hökumət nə rəva?

Bir vərə’ əhli əgər qılsa ibadət yüz il,
Saəti-ədlicə verməz əsəri-qürbi-Xuda.

Hökmdür vasiteyi-mövtü həyati xəlqin,
Vay ol hakimə kim, eyləyə hökmündə xəta.

Qıla məzlumləri mərhəmətindən məhrum,
Verə zalimlərə öz nəf’i üçün istila.

Rəhmət ol hakimə kim, olmaya eldən qafil,
Nəqdi-övqatı ola bəzli-niyazi-füqəra.

Netəkim xütteyi-Bağdadı müşərrəf qılmış
Məzhəri-mərhəmətü ədl Məhəmməd paşa.

Ol sərəfraz ki, yümni-qədəmi-möhtərəmi
Övliya bürcünə olmuş səbəbi-dəf’i-bəla.

Niyyəti xeyr olub, ə’malı səlah olmaq ilə
Hiç kəs yox kim, ona eyləməyə xeyr-dua.

Böylə hakim əsəri-rəhmətidir Yəzdanın,
Qanğı iqlimə qədəm bassa verür zövqü səfa.

Var ümidim kim, onu qılmaya şərməndə əməl,
Ol zaman kim, qurulur məhkəmeyi-ruzi-cəza.

Var ümidim ki, bula feyzi-icabət Həqdən,
Hər dua kim, qıla sidq ilə Füzuliyyi-gəda.

* * *

Götürdü bad bürqə’ çöhreyi-gülbərgi-xəndandan,
Gətirdi aləmi mürği-çəmən əfqanə əfqandan.

Nədir, ya Rəb, çəməndə əndəlibin rişteyi-dami,
Məgər açdı gireh sünbül səri-zülfi-pərişandan?

Əgər qövsi-qüzehdən tir-baran etmədi gərdun,
Nədir aya, səbəb kim, doldu gülbün cismi peykandan?

Və gər bir baği-pünhan ilə bağrın yaqmadı gərdun,
Nədir məqsudi hər dəm lalənin çaki-giribandan.

Bəhar əyyamidir, qurtuldu aləm hər küdurətdən,
Qılıb kəsbi-səfa cüllab feyzi-əbri-neysandan.

Həva fəssadi çəkmiş xardən neştər, məgər bildi
Ki, düşmüşdür gireh gülbünlərin ə’zasına qandan.

Göz açdı əqdi-şəbnəmdən təravət kəsb edib nərgis,
Ərəq qurtardı tədric ilə ol bimari böhrandan.

Səfayi-kəsbi-hüsni-istiqamət eylədi hasil,
Mizaci-mülki-aləm iqtidayi-əqdi-dövrandan.

Səlahü e’tidalı dəhr mənsub etdi əzdadə,
Fəsadü ixtilafı dövr mərfü etdi ərkandan.

Çəmən bəzminə rövnəq verməyə gül qönçədən çıxdı,
Müəyyən qılmaq üçün Misri Yusif çıxdı zindandan.

Nola çeşmi-tər ilə çıxsa həbsi-xakdən nərgis,
Nola gər çıxsa Yə’qubi-bəlakəş Beytül-əhzandan.

Buraxdı jəng mir’ati-sərabə səbzeyi-səhra,
Nəmi-xak etdi rəxşi-girdibadi mən’ cövlandan.

Sərasər qıldı əczayi-zəmin əmvatını əhya,
Məgər bir cür'ə abi-Xizr idi hər qətreyi-baran?

Müalic sihhəti-bimar üçün çox çəkməsin zəhmət
Bu gün kim, kəsb olur ol müddəa seyri-gülüstandan.

Fəzilət ol degil kim, səfheyi-gülzarı doldurdu,
Bəhari-aləmara sünbülü nəsrinü reyhandan.

Budur kim, rövzeyi-Darüssəlami eylədi məmnun
Sərəfrazi-səadətmənd lütfü ədlü ehsandan.

Nizami-mük Ibrahim bəg, ol paksiyrət kim,
Təqazayi-təfəvvür eyləmiş əfradi-insandan.

Sərəfrazi zəkitəb'i, fələkrə'yü mələksiyrət,
Münəzzəhdir kəmali-nisbəti əmsalü əqrandan.

Kəmalü fəzli-zati Asəf övsafında xətm olmuş,
Götürmüş jəngi-nəqz ayineyi-mülki-Süleymandan.

Dili-pürnurinə qılmaz güzar əfkari-nasayib
Kim, ol qəndil məmlüvdür ləbaləb nuri-irfandan.

Könül gər meyli-gülzar etsə, fəsli-gül onunçündür
Ki, tə'lim ala mədhin ləhceyi-mürği-xoşəlhandan.

Və gər göz mərdümi bustan təmaşasına meyl etsə,
Onunçündür ki, tərhi-bəzm edə idrak bustandan.

Sərəfraza! Bihəmdillah, bəhari-pərtövi-ədlin
